QARABAĞ AZƏRBAYCANDIR!

"Böyük Qayıdış: İlham Əliyev siyasətinin təntənəsi"




5

# Qərbi Azərbaycana qayıdacağımız gün uzaqda deyil



2

Səs
№ 238 (6679) 27 dekabr 2022-ci il. Qiyməti 60 qəpik

# Cinayətkar rejimin çıxış yolu qalmadı - "kütləvi mitinq" nəticəsizliyi



Vardanyan, Arutyunyan, Balasanyan, Babayan və başqaları dərk etməyə məhkumdurlar ki, heç bir sadə Qarabağ ermənisi onların "bahalı dərilərinə" görə öz canlarını güdaza vermək fikrində deyil!

12

## "Qərbi Azərbaycana uzanan yolumuz uğurludur"




8

## İş insanın ikinci evidir?



16

## ABŞ-a qarşı Almaniya-Çin birliyi



10

## Sevgilisi Ronaldoya 600 minlik avtomobil hədiyyə etdi



16

## Restoran və otellərdə yeni il ilə bağlı qiymətlər necədir?



14

# Qərbi Azərbaycana

## qayıdacağımız gün uzaqda deyil



**İlham Əliyev:**

**"Gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar"**



"Qərbi azərbaycanlılar qanunsuz olaraq dəfələrlə deportasiyaya məruz qalmış toplumdur. Onların hüquqları bərpa edilməlidir və onlar öz doğma torpaqlarına qayıtmalıdırlar". Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündə bildirib. "Mən bunu deyəndə təxmin edirəm, yenə də Ermənistanda növbəti dəfə isterika başlayacaq ki, Azərbaycan gəldi bizi işğal etdi və sair. Yox. Biz bunu sülh yolu ilə etmək istəyirik. Biz hüquqlarımızı sülh yolu ilə təmin etmək istəyirik və yenə də deyirəm, bütün konvensiyalar bu hüququ tanıyır. Ona görə buna nail olmaq üçün biz, o cümlədən beynəlxalq müstəvidə daha fəal olmalıyıq. Hesab edirəm ki, İcmanın çox mötəbər bir rəqəmsal platforması olmalıdır, bir portalı olmalıdır. Orada həm tarixi həqiqətlər, həm tarixi abidələrimiz, ermənilər tərəfindən dağıdılan saraylar, məscidlər, şəhərlər, Azərbaycan tarixi irsinin silinməsi ilə bağlı olan faktlar öz əksini tapmalıdır", - deyə dövlətimizin başçısı vurğulayıb.

Qərbi Azərbaycan İcması 1989-cu ildən fəaliyyət göstərən "Azərbaycan Qaçqınlar Cəmiyyəti" İctimai Birliyinin hüquqi varisidir. Bu il avqustun 3-də İctimai Birliyin adı dəyişdirilərək "Qərbi Azərbaycan İcması"na çevrilib, İcmanın yeni Nizamnaməsi təsdiq olunub və Müşahidə, Ağsaqqallar, Ziyalılar, Qadınlar və Qəyyumlar şuraları, İdarə Heyəti, Nəzarət-Təftiş Komissiyası, Gənclər Birliyi, xarici ölkələrdəki nümayəndəliklər kimi strukturlar yaradılıb. "Avqust ayında Azərbaycan Qaçqınlar Cəmiyyəti Qərbi Azərbaycan İcmasına çevrilmişdir və mən hesab edim ki, ən düzgün yer, ən düzgün qərargah məhz bu bina olmalıdır", - deyən Cənab Prezident qeyd edib ki, təkcə ona görə yox ki, bu, çox gözəl binadır, dördmərtəbəlidir və burada fəaliyyət göstərmək üçün bütün imkanlar var, Heydər Əliyev Mərkəzi ilə demək olar ki, üzbəüz yerləşir: "Əsas səbəb o idi ki, burada vaxtilə yerləşmiş Qarabağın məcburi köçkünlər icması artıq öz torpaqlarına qayıdır. Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Mən əminəm ki, bu gün gələcək və əminəm ki, Qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar."

Xatırladaq ki, təşkilat 1989-cu ildən Qərbi Azərbaycan qaçqınlarının problemləri ilə məşğul olan və 1988-1991-ci illərdə qaçqın düşən azərbaycanlılar barədə faktların və sənədlərin toplandığı və saxlandığı yeganə ictimai qurumdur. 1988-1991-ci illərdə Qərbi Azərbaycandan qovulmuş 50 mindən çox ailənin 20 minə qədərinə dəymiş ziyan hesablanıb və hazırda bu işlər davam etdirilir. Həmin illərdə Qərbi Azərbaycanda 300-ə yaxın yaşayış məntəqəsindən qovulan qaçqınların hər bir ailə üzrə (ad, soyad, ata adı) dəqiq statistikası aparılıb, 130 kəndin siyahısı tamamlanıb. Təşkilat Qərbi Azərbaycanda tarixi və mədəni irsimizin bütün nümunələrinin dəqiq siyahısının hazırlanması davam etdirir.

### "QƏRBİ AZƏRBAYCAN BİZİM TARİXİ TORPAĞIMIZDIR, BUNU BİR ÇOX TARİXİ SƏNƏDLƏR TƏSDİQLƏYİR"

Tarixin müxtəlif dönəmlərində azərbaycanlılar öz əzəli torpaqlarından uzaqlaşdırılmış, deportasiyaya məruz qalmışdırlar. XIX əsrdə Çar Rusiyası tərəfindən Osmanlı və İran ərazisindən ermənilərin kütləvi şəkildə Cənubi Qafqaza köçürülməsi ilə azərbaycanlıların öz tarixi torpaqlarında sıxışdırılması prosesinə başlanılıb. XX əsrin əvvəllərində azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə, soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərlə, faciələrlə üzləşib. Mərhələ-mərhələ gerçəkləşdirilən bu plan nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən - min illər boyu yaşadıqları öz doğma tarixi torpaqlarından qovularaq kütləvi qətl və qırğınlara məruz qalıb, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskənləri məhv edilib. "Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Ancaq əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə-yeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var"- deyə dövlət başçısı bildirib. Tarixdən bəllidir ki, 1918-1920-ci illərdə yüz minlərlə azərbaycanlı qətlə yetirilib, öz yurdlarını tərk etmək məcburiyyətində qalaraq qaçqına çevrilib, yüzlərlə Azərbaycan kəndi yer üzündən silinib. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Zaqafqaziyanın sovetləşməsindən öz çirkin məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra digər torpaqlarını Sovet hakimiyyətinin köməyi ilə Ermənistan SSR-in ərazisinə daxil etməyə nail olublar.

### "SƏNDƏN GÜCLÜ OLAN QÜVVƏ QARŞISINDA HEÇ VAXT GERİ ADDIM ATMAMALISAN"

"1920-ci ildə sovet hökumətinin qərarı və erməni millətçilərinin təkidi ilə bizim digər tarixi torpağımız Zəngəzuru da Azərbaycandan ayırıb Ermənistana birləşdirdilər. Bu, xalqımıza qarşı növbəti cinayət idi. Bunun da məqsədi tam aydın idi. Birincisi, erməni millətçiləri sovet hökumətində mühüm vəzifələrdə idi. Digər tərəfdən, Azərbaycanı Naxçıvandan və Türkiyədən coğrafi nöqteyi-nəzərdən ayırmaq üçün atılmış bir addım idi", - deyən Cənab Prezident diqqətə çatdırıb ki, Zəngəzurun Ermənistana verilməsi bir daha onu göstərir ki, bu, çox yanlış, səhv addım idi və dediyim kimi xəyanət idi: "Hətta səndən güclü olan qüvvə qarşısında heç vaxt geri addım atmamalısan, hər zaman öz hüququnu qorumalısan, xüsusilə doğma torpağını qorumalısan. Bununla Qərbi azərbaycanlıların faciələri bitmədi. Hamımız yaxşı bilirik ki, 1948-1953-cü illərdə xalqımız növbəti deportasiyaya məruz qalmışdır".

Ardı Səh. 3

# Qərbi Azərbaycana qayıdacağımız gün uzaqda deyil



Əvvəli Səh. 2

Sonrakı dövrdə bu ərazilərdəki azərbaycanlıların deportasiya edilməsi siyasətini daha da genişləndirmək məqsədilə yeni vasitələrə əl atıblar. Bunun üçün onlar SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" xüsusi qərarına və 1948-1953-cü illərdə azərbaycanlıların öz tarixi torpaqlarından kütləvi surətdə deportasiyasına dövlət səviyyəsində nail olublar. SSRİ Nazirlər Sovetinin bu qərarları Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktları olub. Bu qərarlar əsasında 1948-1953-cü illərdə 150 mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki doğma torpaqlarından kütləvi surətdə və zorakılıqla sürgün olunub. Əsrin əvvəllərində əksər əhalisi azərbaycanlı olan İrəvan şəhərindən və Ermənistan SSR-in digər bölgələrindən soydaşlarımız təqiblərə məruz qalaraq qovulub. Azərbaycanlıların hüquqları kobudcasına pozulub, onlara qarşı sərt repressiyalar həyata keçirilib.

### AZƏRBAYCANLILAR TARİXİ DİYARINDAN DEPORTASİYA EDİLDİ

"Nəhayət 1980-ci illərin sonlarında sovet hökuməti xalqımıza qarşı növbəti cinayət törətdi", - deyən Cənab Prezident Ulu Öndər Heydər Əliyevin hakimiyyətdən getməsindən istifadə edən həm erməni millətçilərinin, həm də onların sovet hökumətindəki havadarlarının dərhal hərəkətə keçdiklərini bildirib: "Heydər Əliyev 1987-ci ilin noyabrında bütün vəzifələrdən uzaqlaşdırılandan iki həftə sonra erməni millətçiləri baş qaldırdılar. Sovet hökuməti onlara dəstək oldu və həm Qarabağda, həm o vaxtkı Ermənistan Respublikasında xalqımıza qarşı növbəti cinayət başlandı. Azərbaycanlılar tarixi diyarı olan Qərbi Azərbaycandan deportasiya edildi və biz bu tarixi yaxşı bilirik, xatırlayırıq və azərbaycanlıların yaşadıqları o məntəqələrin sayını da yaxşı bilirik - 170-dən çox kənddə ancaq azərbaycanlılar yaşayırdılar Sonuncu kəndimiz Nüvədi 1991-ci ilin avqustunda deportasiyaya məruz qaldı. O da azmış kimi Qarabağda da xalqımıza qarşı cinayət törədildi".

1988-1989-cu illərdə azərbaycanlıların tarixi-etnik torpaqlarından - Ermənistandan növbəti deportasiyası baş verib, nəticədə 250 min azərbaycanlı qaçqın düşüb. Bu hadisəyə, o cümlədən Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi cəhdlərinə Azərbaycan xalqının etirazı ona qarşı 1990-cı ilin yanvarında Sovet qoşunlarının yeridilməsinə, Bakıda və Azərbaycanın digər şəhər və rayonlarında kütləvi qırğınlarla səbəb olub.

### QƏRBİ AZƏRBAYCAN İCMASININ ÜZƏRİNƏ DÜŞƏN MƏSULİYYƏT

Xalqımızın inamını özünə qaytaran, Azərbaycan dövlətinin və xalqının qüdrətini, sarsılmaz iradəsini, Ordumuzun gücünü beynəlxalq səviyyədə nümayiş etdirən möhtəşəm Qələbə yeni reallıqlar yaradıb. Zəferimiz bütün dünyaya xalqımızı yenilməz bir bir xalq kimi təqdim edib. 2020-ci il sentyabrın 27-də Azərbaycan Prezidentinin siyasi iradəsi, diplomatik gücü və hərbi sərkərdəlik bacarığı nəticəsində 30 il işğal altında qalan torpaqlarımız 44 gün ərzində düşməndən azad edildi. Bu gün İcmanın üzərinə böyük məsuliyyət düşür. Qərbi Azərbaycan həqiqətlərinin öyrənilməsi, dünya ictimaiyyətinə çatdırılması, erməni saxtakarlıqlarının, erməni yalanlarının sona qədər ifşası və son 200 ildə Qərbi Azərbaycandan qovulmuş azərbaycanlıların, onların varislərinin hüquqlarının beynəlxalq müstəviyə çıxarılması və digər məsələlər onların üzərində böyük məsuliyyətdir. "Qərbi Azərbaycan İcmasının bundan sonra daha mütəşəkkil formada fəaliyyət göstərməsi hamımız üçün çox önəmlidir - həm Qərbi Azərbaycandan olan insanlar üçün, həm də bütün Azərbaycan xalqı üçün. Hesab edirəm ki, biz bu işi bundan sonra daha məqsədyönlü şəkildə aparmalıyıq. Yəni, təşkilat qurulub, İcma qurulub, dövlət orqanları öz dəstəyini göstərir və göstərəcək. Əlavə göstərişlər mənim tərəfimdən veriləcəkdir. Ona görə hesab edirəm ki, İcma bir neçə istiqamət üzrə öz işini davam etdirməlidir. Əlbəttə ki, ölkə daxilində bu İcmanın fəaliyyəti daha da gözəgörünən olmalıdır. Hər halda Azərbaycan çərçivəsində bu İcmanın fəallığı çox önəmli ola bilər", - deyə Prezident qeyd edib.

### "BİZİM TARİXİ HƏQİQƏTLƏRLƏ BAĞLI KİTABLARIMIZ YENİLƏNMƏLİDİR"

Dövlət başçısı görüləcək işləri də nəzərə çatdırıb. Bildirib ki, bizim tarixi həqiqətlərlə bağlı kitablarımız yenilənməlidir. "Müəyyən dövrdə kitablar dərc edilmişdir, o cümlədən tarixi şəhərlərimizin, kəndlərimizin adları ilə bağlı kitab dərc edilmişdir Onun yanında həm də elektron daşıyıcısı olmalıdır. Xarici dillərə tərcümə edilməlidir. Yəni, bu təbliğat işləri mütləq aparılmalıdır. Hesab edirəm ki, ildə bir dəfə, ya da iki ildən bir Bakıda Qərbi Azərbaycanla bağlı beynəlxalq konfrans keçirilməlidir. Biz özümüz üçün dost saydığımız ölkələrdən alimləri, arxeoloqları, tarixçiləri dəvət edəcəyik ki, mötəbər bir beynəlxalq konfrans keçirək, bunu təqdim edək. Yəni, bir çox addımlar atılmalıdır ki, bu mövzu gündəlikdən çıxmasın, əksinə bu mövzu beynəlxalq gündəliyə daxil edilsin. Çünki bu gün Ermənistan monodövlətdir. Biz bunu deyəndə, haqlı olaraq dünya ictimaiyyətinə bildiririk ki, bu, dözülməzdir".

### QƏRBİ AZƏRBAYCANA QAYIDIŞ KONSEPSİYASI

Cənab Prezident proqramm xarakterli çıxışında onu da bildirib ki, bununla paralel olaraq hesab edirəm ki, biz birgə səylərlə Qərbi Azərbaycana Qayıdış Konsepsiyasını da işləməliyik: "Qarabağ münaqişəsi həll olunandan sonra indi bizim gündəliyimizdə duran məsələ budur. Əlbəttə ki, Qarabağ münaqişəsi həll olunmayana qədər bu haqda danışmaq bəlkə də tez idi. Ancaq, məncə bu gün biz vaxt itirməməliyik. Qayıdış Konsepsiyası hazırlanmalıdır. Yenə də bu, necə deyərlər, sülhsevər konsepsiya olmalıdır. Biz bütün beynəlxalq konvensiyalarda bizə məqbul olan müddəaları götürüb bunun əsasında öz hüquqmumuzu tələb etməliyik. Qayıdış Konsepsiyası olmalıdır". Əlbəttə ki, Azərbaycan Prezidentinin qüdrəti və apardığı uğurlu xarici və daxili siyasət sayəsində Qərbi azərbaycanlıların da tarixi torpaqlarına qayıdacağı gün uzaq deyil. Ölkəmizin iqtisadi və sosial inkişafı, beynəlxalq nüfuzunun artması, xalqımızın rifahının yüksəlməsinə və daha gözəl gələcəyinin təmin edilməsinə xidmət edən dövlət siyasəti daha böyük uğurları bizlərə yaşadacaqdır. Görüşdə dövlətimizin başçısının söylədiyi nitqdəki hər bir fikrinin arxasında böyük bir proqram dayanır. Göründüyü kimi, bütün hədəf və məqsədimiz aydındır. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı, Azərbaycan ordusu 44 günlük müharibədə qələbə əzmini dünyaya nümayiş etdirdiyi kimi, bundan sonra da qarşıya qoyduğu məqsədləri reallaşdıracaqdır.

***Zümrüd BAYRAMOVA***

# Sankt-Peterburqda MDB dövlət başçılarının iclası keçirilib





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə MDB dövlət başçılarının iclasında iştirak etmək üçün dekabrın 26-da Sankt-Peterburq şəhərinə işgüzar səfərə gəlib. Sankt-Peterburq şəhərinin Pulkovo-2 hava limanında dövlətimizin başçısını Sankt-Peterburq şəhərinin qubernatoru Aleksandr Beqlov, Leninqrad vilayətinin qubernatoru Aleksandr Drozdenko və digər rəsmi şəxslər qarşılayıblar.**

Dekabrın 26-da Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində MDB dövlət başçılarının iclası keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda iştirak edib. Rusiya Prezidenti Vladimir Putin Azərbaycan Prezidenti İlham Əliyevi qarşılayıb. Sonra birgə foto çəkdirilib.







# İnformasiya savaşının sərkərdəsi!

### HƏM HƏRB MEYDANINDA, HƏM DƏ DANIŞIQLAR MASASINDA - İLHAM ƏLİYEV QƏTİYYƏTİ



Bəşər tarixinin son onillikləri müharibələrlə doludur, lakin heç bir dövlət başçısı bu müharibələr zamanı çoxlu sayda aparıcı KİV-in maraq dairəsinə düşməyib. Ancaq bir faktı vurğulamaq lazımdır ki, qətiyyətli, nüfuzlu siyasi rəhbərə, dövlət başçısına beynəlxlaq marağın yüksək olması və bu marağın müharibə zamanı xüsusilə yüksək olması tam məntiqlidir. Bu baxımdan, Azərbaycan Prezidenti İlham Əliyevə müsahibə üçün dünyanın bir çox tanınmış media qurumlarının müraciət etməsi, ilk növbədə, Azərbaycan Prezidentinin nüfuzlu lider olmasından irəli gəlir.

Belə bir fikir var: Tarix boyu həmişə belə olub ki, sərkərdəsi güclü olan ordu qalib olub. Eynilə biz bu tarixi canlı olaraq yaşadıq. 44 gün davam edən İkinci Vətən Müharibəsi dövründə bizi qələbələrə aparan əsas faktorlardan biri möhtərəm Prezidentimizin savaş zamanı dünyanın 30-a yaxın mediasına çoxsaylı müsahibələr verdi, bir çox beynəlxalq tədbirlərdə etdiyi çıxış və bəyanatları ilə Qərb ictimai rəyində Azərbaycanın xeyrinə dönüş yarada bildi. Hətta qərəzli suallar qarşısında, sözün əsl mənasında, siyasi liderlik dərsi keçən Prezident İlham Əliyev özünün hazırlıqlı siyasətçi olduğunu sübuta yetirməklə yanaşı, Azərbaycanın haqlı mövqeyini konkret faktlarla ortaya qoydu, bütün dünyaya çatdırdı.

Müharibədən sonra 50-dən çox yerli və xarici media nümayəndələrinin iştirak etdiyi və 4 saatdan çox davam edən mətbuat konfransında isə Prezident İlham Əliyev jurnalistlərin suallarına dörd dildə - Azərbaycan, türk, ingilis və rus dillərində cavablandırdı. Hətta Böyük Britaniyadan olan jurnalist Aynur Tattersal mətbuat konfransında bildirdi ki, 25 ildir jurnalistika ilə məşğuldur, amma hər hansı prezidentin dörd dildə bu cür mətbuat konfransı keçirməsinin şahidi olmayıb. O, Prezidentin rekorda imza atdığını dilə gətirdi. Bu Ali Baş Komandanımızın sərrast fikirləri və mükəmməl diplomatiyası idi. Ümumilikdə, Prezident İlham Əliyev müharibə dövründə xarici mediaya verdiyi müsahibələrlə yalnız döyüş meydanında deyil, informasiya müharibəsində də Ali Baş Komandan xarici mediada hücum diplomatiyası sərgiləyərək tarixi həqiqətlər, Dağlıq Qarabağ münaqişəsinə dair vacib hüquqi və siyasi məqamlar barədə beynəlxalq ictimaiyyəti məlumatlandırıb. Onun gərgin əməyi və uğurlu informasiya siyasəti sayəsində dünya miqyasında ictimai rəyin Azərbaycanın lehinə dəyişməsi təmin edilib. Dövlət başçısının dünyanın nüfuzlu nəşrlərinə verdiyi müsahibələrdə təkcə erməni yalanları ifşa edilməyib, anti-Azərbaycan dairələrin qarayaxma kampaniyaları da iflasa uğradılıb.

Qeyd edək ki, indiyə qədər Azərbaycan tərəfdən heç bir müsahibə, açıqlama, nitq, video, çıxış xarici mediada bu qədər izlənilməyib. İndi isə, artıq izlənilir. Cənab Prezidentin sayəsində. Yəni, məlum faktın özü yetərincə böyük göstəricidir və bu, Azərbaycana və onun Liderinə olan xoş münasibətin növbəti göstəricisidir.

Bir sözlə, dövlət başçısının həm müharibəni gedişində, həm də sonra beynəlxalq ictimai rəyi Azərbaycanın xeyrinə dəyişməyi necə bacardığının hər kəs şahididir. Mühüm beynəlxalq platformalarda nitqləri, müzakirələrdə iştirakı ilə Azərbaycan Prezidenti aydın göstərir ki, Azərbaycan iqtidarı dövlət idarəçiliyi, daxili və xarici siyasət məsələlərinə konseptual yanaşır. Bu amil demək olar dünyanın bütün aparıcı media orqanları tərəfindən vurğulanır. Xüsusilə də, Prezident İlham Əliyevin "CNN Türk" telekanalına müsahibəsi də əvvəlki müsahibələri kimi Prezident, Ali Baş Komandan İlham Əliyevin "CNN Türk" televiziya kanalına müsahibəsi beynəlxalq aləmdə böyük əks-səda doğurub. Dövlət başçısı bu müsahibə zamanı bir daha Ermənistana və onu silahlandıranlara növbəti xəbərdarlıq etməklə Azərbaycanın qətiyyətli mövqeyini nümayiş etdirdi.

### MƏTBUAT KONFRANSLARI AZƏRBAYCAN PREZİDENTİNİN GÜCLÜ VƏ XARİZMATİK DÖVLƏT BAŞÇISI VƏ QƏTİYYƏTLİ LİDER OLDUĞUNU BİR DAHA GÖSTƏRDİ

Ən qürurverici odur ki, müharibədən sonra 50-dən çox yerli və xarici media nümayəndələrinin iştirak etdiyi və 4 saatdan çox davam edən mətbuat konfransında KİV nümayəndələri, eləcə də bütün dünya mətbuatında dövlətimizin başçısının sualları yüksək diplomatik məharət, natiqlik nümayiş etdirərək, səlis, təfərrüatlı, dəqiqliklə, məntiqlə, tam əsaslandırılmış şəkildə, özü də müxtəlif dillərdə cavablandırması, sözün həqiqi mənasında, heyrət doğurmuşdu. Dövlətimizin başçısı mətbuat konfransında bir çox önəmli mesajlar da verdi və onun hər fikrini maraqla dinləyən geniş bir auditoriya var idi. Hər kəs Prezident İlham Əliyevin nə qədər uzaqgörən, müdrik bir siyasi xadim olduğunu bir daha gördü.

Belə ki, həmin mətbuat konfransında Böyük Britaniyadan olan müstəqil jurnalistin sözləri də bir daha deyilənlərin göstəricisidir: "Cənab Prezident, bizi bura dəvət etdiyinizə görə Sizə təşəkkür edirik. Düşünürəm ki, mətbuat konfransının uzunluğuna görə Siz artıq dünya rekorduna imza atmısınız. Mən 25 ildir jurnalistika ilə məşğul oluram, ancaq hər hansı bir Prezidentin 4 dildə bu cür mətbuat konfransı aparmasının şahidi olmamışdım".Həmçinin, KGK İdarə Heyətinin sədri Mehmet Ali Dim, Prezidentin 4 saatlıq fasiləsiz konfransla dünya rekordu qırdığını söyləyib: "Mən hələ belə bir səbirli lider görməmişəm. Bütün suallara səmimi cavab verdi. Azərbaycan xalqı çox şanslıdır. Bu cür təcrübəli və savadlı lider hər ölkədə ola bilməzdi". Londonda fəaliyyət göstərən jurnalist, KGK baş katibinin müavini Aynur Tattersall isə dünya liderləri ilə görüşməyin ortalama yarım saatdan 1 saata qədər davam etdiyini bildirib: "25 ildir jurnalistəm, dünyanın dörd bir yanında mətbuat konfranslarını izləmişəm. Dünya liderinin hər suala jurnalistin öz dilində bu qədər uzun müddət cavab verdiyini ilk dəfədir görürəm".

Bax, budur Liderlik! Necə də qürur duymayasan. Güclü ölkənin güclü, qətiyyətli lideri olmaq budur. Böyük mütəfəkkir Viktor Hüqo vaxtilə yazırdı: "Əsl Liderin ömrünün yarısı Vətənə, digər yarısı da xalqa xidmət etməkdən ibarətdir". Bu uğurlar, əlbəttə ki, bu, son 18 illik prezidentlik fəaliyyəti nəticəsində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin möhkəm iradəsi, qətiyyəti, müdrikliyi sayəsində baş verdi. Hər zaman iklərə imza atan Prezident İlham Əliyev fevralın 26-da keçirdiyi mətbuat konfransı ilə dövlətimizin başçısı daha bir ilkə imza atdı. Bu, Azərbaycan Prezidentinin yerli və xarici media nümayəndələri ilə dörd saatdan artıq davam edən ilk görüşü idi. Dövlətimizin başçısı bu məsələyə toxunaraq dedi: "Mən bilirəm, hərdən yerli jurnalistlər də bir növ gileylənirdilər ki, niyə Prezident Əliyev mətbuat konfransları təşkil etmir, müsahibələr vermir. Mən hesab edirəm ki, hər bir işin öz vaxtı var. Sənin vermək istədiyin bir mesaj varmı və səni dinləyəcək bir auditoriya varmı? Müharibə vaxtı 44 gün ərzində mən 30-dan artıq müsahibə verdim, çünki buna ehtiyac var idi. Mən dünyaya mesajımızı çatdırmaq istəyirdim, mən həqiqəti və mövqeyimizi dünyaya çatdırmaq istəyirdim. Hər gün mən bəyanatlar verirdim, Azərbaycan xalqına müraciətlər edirdim. Çünki buna ehtiyac var idi, xalqımızın buna ehtiyacı var idi, ordumuzun buna ehtiyacı var idi. Bilirəm ki, mənim həmin o müraciətlərim və mesajlarımın ümumi qələbəmizdə böyük rolu olmuşdur".

Beləliklə, Prezident İlham Əliyevin keçirdiyi mətbuat konfransı Azərbaycan həqiqətlərinin bir daha dünyaya çatdırılması, regionda yaranmış yeni reallıqlara və bölgənin gələcəyi ilə bağlı məqamlara aydınlıq gətirilməsi baxımdan çox uğurlu oldu. Azərbaycan Prezidenti bir daha dünyanın diqqətini özünə cəlb etdi. Bu mətbuat konfransı informasiya cəbhəsində Azərbaycanın mövqeyini daha da gücləndirdi.

Bir sözlə, həm hərb meydanının, həm də informasiya savaşının sərkərdəsi cənab Ali Baş Komandan ön cəbhədə döyüşən əsgər və zabitlərimizə öz əmrlərini verərək onlardan qələbə qazanmağı tələb etdiyi zamanda, eynilə dünyanın tanınmış KİV-lərinə müsahibə verərkən həm də yerli media nümayəndələrinə informasiya savaşında məğlub olmamaq tələbini göstərməklə bir daha bütün dünya İlham Əliyevin qətiyyətinin, yüksək liderlik keyfiyyətlərinin, siyasi müdrikliyinin və uzaqgörənliyinin şahidi oldu.

Beləliklə, döyüş meydanının qalibi olan Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev informasiya savaşında da qalib oldu. Ən mühümü odur ki, Azərbaycan Prezidenti həm də erməni təbliğatına düşmənin maraqlarını müdafiə edən informasiya məkanlarında tutarlı zərbə vurdu, Ermənistanın, dünya erməniliyinin, həm də erməni lobbisinin Azərbaycana qarşı qərəzli informasiya mühiti yaratmaq xülyası iflasa uğradı.

***RƏFİQƏ HÜSEYNOVA***

# “Böyük Qayıdış:
## İlham Əliyev siyasətinin təntənəsi”

**Yeni Azərbaycan Partiyasının (YAP) təşkilatçılığı, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin tərəfdaşlığı ilə bu mövzuda konfrans keçirilib**










**Dekabrın 24-də Yeni Azərbaycan Partiyasının (YAP) təşkilatçılığı, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin tərəfdaşlığı ilə ”Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”na həsr olunmuş ”Böyük Qayıdış: İlham Əliyev siyasətinin təntənəsi” mövzusunda konfrans keçirilib.**

Konfransda açılış nitqi ilə çıxış edən YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov əvvəlcə tədbir iştirakçılarını salamlayıb, konfransın işinə uğurlar arzulayıb. O bildirib ki, çoxəsrlik tarixinin ən qüdrətli dövrünü yaşayan müstəqil Azərbaycan dövləti Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində möhtəşəm Qələbə qazanaraq yeni reallıqlar yaratdı: ”Tarixi ədalətin, respublikamızın ərazi bütövlüyünün və xalqımızın milli ləyaqətinin bərpasını təmin edən şanlı Zəfər istər ölkəmizdə, istərsə də bütövlükdə Cənubi Qafqaz regionunda yeni siyasi, sosial-iqtisadi, mədəni-humanitar və hərbi-strateji çağırışların meydana çıxmasını şərtləndirdi. Əvvəla, Azərbaycan 30 ilə yaxın müddət ərzində işğal faktının, separatizmin hökm sürdüyü, toqquşma və qarşıdurmaların intensiv xarakter daşıdığı bölgədə yeni əməkdaşlıq imkanlarının və təhlükəsizlik mühitinin formalaşdırılması üçün əlverişli şərait yaratdı. Bu imkanlardan səmərəli istifadə Cənubi Qafqazın uzunmüddətli perspektivdə həm region dövlətlərinin, həm də güc mərkəzlərinin maraqlarının uzlaşdığı çoxşaxəli tərəfdaşlıq məkanına çevrilməsini mümkün edir. Bu isə geosiyasi və hərbi-strateji baxımdan mühüm əhəmiyyətə malik olmaqla yanaşı, iqtisadi cəhətdən də faydalı və perspektivlidir. Digər tərəfdən, postmüharibə dönəmində yeni hədəflər müəyyənləşdirən Azərbaycan işğaldan azad edilmiş ərazilərin bərpası istiqamətində sistemli fəaliyyət həyata keçirməklə həm mütərəqqi quruculuq və regional inkişaf modeli, həm də bölgədə yeni tərəfdaşlıq platforması yaradır. Belə ki, müəyyən olunmuş strateji prioritetlərə uyğun olaraq Azərbaycan öz iqtisadi gücü hesabına, müasir texnologiyalardan istifadə edərək və innovasiyalar tətbiq etməklə bərpa-quruculuq işləri aparır. Bu proses çərçivəsində xarici tərəfdaşlarla da səmərəli əməkdaşlıq əlaqələri qurulub və birgə təşəbbüslər əsasında mühüm layihələr reallaşdırılır.

*Ardı Səh. 6*

# "Böyük Qayıdış:
## İlham Əliyev siyasətinin təntənəsi"

Əvvəli Səh. 5

Tərəfdaşlıq zəminində ərazilərin minalardan təmizlənməsi, yaşayış məntəqələrinin müasir konsepsiyalar əsasında qurulması, nəhəng infrastrukturun yaradılması, iqtisadi fəaliyyətin bərpası və digər addımlar Böyük Qayıdışın - layiqli və dayanıqlı məskunlaşmanın təmin olunmasına əlverişli şərait yaradır".

YAP Sədrinin müavini vurğulayıb ki, Azərbaycanın 2030-cu ilədək beş Milli Prioritetindən biri işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışın təmin edilməsidir. Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə təsdiqlənən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda əksini tapan vəzifələrin ardıcıl olaraq yerinə yetirilməsi bu istiqamətdə qarşıda duran hədəflərə çatmağa imkan verəcək: "Böyük Qayıdış proqramı çərçivəsində görüləcək işlər həmin ərazilərdə iqtisadi fəallığın təmin olunması və ekoloji vəziyyətin yaxşılaşdırılması baxımından mühüm əhəmiyyətə malik olmaqla yanaşı, sosialyönümlü iqtisadiyyatın inkişafına, o cümlədən məşğulluğun artmasına, əhalinin rifahının yüksəlməsinə əlavə təkan verəcək. İşğaldan azad edilmiş ərazilərdə tarixi, dini və mədəni abidələrin bərpası da quruculuq və Böyük Qayıdış prosesinin mühüm tərkib hissəsidir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən mədəni quruculuq tədbirləri də istər Qarabağ və Şərqi Zəngəzurun dirçəlişinə və intibahına, istərsə də milli yaddaşımızın bərpasına, Azərbaycanın zəngin tarixi ənənələrinin və milli-mənəvi dəyərlərimizin dünyaya təqdim olunmasına müstəsna töhfədir".

"İnkaredilməz həqiqətdir ki, Böyük Qayıdış 30 il ərzində Ermənistanın işğalçı siyasətindən əziyyət çəkən Azərbaycan xalqının ən böyük arzularından idi. Bu gün iftixarla qeyd edirik ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan möhtəşəm Zəfər nəticəsində soydaşlarımızın arzuları gerçəkliyə çevrilir. Artıq Böyük Qayıdış prosesinə start verilib və Azərbaycan tarixi Qələbəni diplomatiya meydanında, quruculuq müstəvisində möhkəmləndirir. Bu, istər ölkədə, istərsə də regional miqyasda keyfiyyətcə yeni mərhələnin başlanğıcı və yeni perspektivlər deməkdir. Əminliklə söyləmək olar ki, 30 illik işğala 44 gündə son qoyan və hazırda Zəfər yürüşünü inamla davam etdirən Azərbaycan Qarabağ və Şərqi Zəngəzuru cənnətə çevirməklə, Böyük Qayıdışı ən yüksək səviyyədə təmin etməklə bir daha öz qüdrətini bütün dünyaya nümayiş etdirəcək. Müzəffər Ali Baş Komandanımızın qeyd etdiyi kimi, " necə ki, düşməni qısa müddət ərzində torpaqlarımızdan qovduq, - cəmi 44 gün ərzində, - bizim tarixi dədə-baba torpağımız olan Qarabağı da qısa müddətdə bərpa edəcəyik!". Heç şübhəsiz, Heydər Əliyev ideyalarının təntənəsi və Prezident İlham Əliyevin uzaqgörən siyasətinin real nəticəsi olan Böyük Qayıdış çoxəsrlik dövlətçilik tariximizin ən parlaq səhifələrindən birinə çevriləcək və daha güclü Azərbaycanın etibarlı bünövrəsini təşkil edəcək",- deyə YAP Mərkəzi Aparatının rəhbəri vurğulayıb.











Sonra İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın təqdimatı ilə çıxış edib. V.Qasımlı bildirib ki, proqram çərçivəsində qarşıya qoyulan hədəflərə çatmaq məqsədilə Dövlət Proqramında 2022-2026-cı illər üçün 6 prioritet istiqamət müəyyənləşdirilib. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası bərpa və quruculuq işlərinə böyük təkan verəcək. Onun sözlərinə görə, Dövlət Proqramında işğaldan azad edilmiş ərazilərdə aparılmış bərpa-quruculuq işləri və mövcud vəziyyət, hədəflənən məqsədlər və onlara uyğun hədəf göstəriciləri, Dövlət Proqramının prioritet istiqamətləri, əhalinin doğma torpaqlarına qayıdışı məsələləri, gözlənilən nəticələr, ehtimal edilən risklərin idarə olunması, müvafiq vəzifələrin yerinə yetirilməsi üçün maliyyələşmə mənbələri və həyata keçiriləcək tədbirlər öz əksini tapır. Dövlət Proqramının hazırlanmasında mütərəqqi beynəlxalq təcrübə, bu sahədə strateji inkişaf tendensiyaları, işğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi potensialı və dünya iqtisadiyyatının müasir çağırışları nəzərə alınıb. Dövlət Proqramının əhatə dairəsini isə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına daxil olan ərazilər təşkil edir.







Vüsal Qasımlı qeyd edib ki, proqramın icrası çərçivəsində işğaldan azad edilmiş ərazilərdə bərpa və quruculuq işlərinin əlaqələndirilmiş şəkildə təşkili, ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, dövlət-özəl tərəfdaşlığına əsaslanan iqtisadi artımın stimullaşdırılması və dayanıqlı məskunlaşmanın təmin edilməsi kimi hədəflərin həyata keçirilməsində institusional baza müstəsna əhəmiyyətə malikdir. İnstitusional mexanizmlər isə postmüharibə dövrünün ilk günlərində yaradılıb. Belə ki, Azərbaycan Prezidentinin 2020-ci il 24 noyabr tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində sosial-iqtisadi, humanitar, təşkilati və digər təxirəsalınmaz məsələlərin həlli, eləcə də bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə Əlaqələndirmə Qərargahı yaradılıb.

Vurğulanıb ki, işğaldan azad edilmiş ərazilərin yenidən qurulması, bərpası, dayanıqlı inkişafının və əhalinin yüksək həyat səviyyəsinin təmin olunması üçün zəruri infrastrukturun yaradılması xüsusi önəm daşıyır. 2020-ci ilin noyabr ayından etibarən işğaldan azad edilmiş ərazilərdə hava limanlarının, avtomobil və dəmir yollarının tikintisi işlərinə başlanılmış, qısa zaman ərzində bölgədəki müxtəlif yaşayış məntəqələri arasında, eləcə də bu məntəqələri ölkənin digər şəhər və rayonları ilə birləşdirən nəqliyyat infrastrukturu formalaşdırılmağa başlanıb. Bu ərazilərdə enerji infrastrukturunun qurulması və regionun enerji, o cümlədən bərpa olunan enerji potensialından səmərəli istifadə çərçivəsində infrastruktur təminatının yaxşılaşdırılması və layiqli həyat şəraitinin yaradılması üçün elektrik, su, qaz, istilik təchizatı xidmətlərinin qurulması istiqamətində sistemli tədbirlər həyata keçirilir.

İcraçı direktor söyləyib ki, Dövlət Proqramına uyğun olaraq görülən işlər əsasən "ağıllı şəhər", "ağıllı kənd" və "yaşıl enerji zonası" konsepsiyası əsasında həyata keçiriləcək. Artıq bu istiqamətdə ilk təcrübə mövcuddur. Belə ki, Zəngilan rayonunun Ağalı kəndi "ağıllı kənd" konsepsiyası əsasında qurulub. Azad edilmiş ərazilərə "Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası üçün 20 milyard manat civarında maliyyə resursuna ehtiyac var. O qeyd edib ki, növbəti beş ildə minalardan təmizləmə işləri 280 min hektar ərazini əhatə edəcək. V.Qasımlı vurğulayıb ki, işğaldan azad edilmiş ərazilərə dair 240 yeni xəritənin hazırlanması, torpaqların bələdiyyə, dövlət, özəl torpaqlara bölüşdürülməsi işləri aparılacaq. Dövlət Proqramının Tədbirlər Planı bölməsində 25 fəaliyyət istiqaməti üzrə görüləcək 188 tədbirin icrası nəticəsində 237 ilkin, 238 aralıq və 163 yekun nəticə indikatorları olmaqla toplam 638 indikator müəyyənləşdirilib.

Konfransda "Böyük Qayıdışın ekoloji aspektləri" mövzusunda çıxış edən Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev bildirib ki, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədinin və "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair Birinci Dövlət Proqramı"nın əsas prioritetlərindən biri ətraf mühitlə bağlı problemlərin həlli, dinamik iqtisadi inkişaf fonunda ekoloji təhlükəsizliyin təmin olunması, ən müasir - aztullantılı texnologiyaların tətbiqi və təmiz ekoloji mühitin yaradılmasıdır.

Ardı Səh. 7

Əvvəli Səh. 6

# "Böyük Qayıdış: İlham Əliyev siyasətinin təntənəsi"

Hər iki sənəddə "işğaldan azad olunmuş ərazilərə böyük qayıdış", "təmiz ətraf mühit və yaşıl artım ölkəsi" prioritetləri arasında tam sinerji təmin edilib. Belə ki, strateji sənədlərdə meşə fondunun, flora və faunanın bərpası, xüsusi mühafizə olunan təbiət ərazilərinin inkişafı, hidrometeoroloji müşahidə şəbəkəsinin bərpası, su resursları və mineral xammal ehtiyatlarından səmərəli istifadə və s. məsələlər əsas prioritetlər kimi göstərilib. Proqramda qeyd olunan istiqamətlərə uyğun olaraq bu ərazilərdə ekoloji mühitin bərpası üçün mərhələli şəkildə işlərə başlanılıb. Orta və uzunmüddətli perspektivdə meşələrin bərpa edilməsi və əvvəlki vəziyyətə qaytarılması üçün meşə əkini işləri aparılır. Cəbrayıl, Zəngilan, Füzuli və Ağdam rayonlarında geniş ərazilərdə terraslar və yaşıl dəhlizlərdən ibarət meşə-parkların salınmasına başlanılıb. Türkiyə Respublikası ilə birlikdə Cəbrayıl rayonu ərazisində "Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi", "Ağıllı Tingçilik" və "Dostluq Meşəsi" Kompleksinin yaradılması işlərinə başlanılmışdır. Buradakı tinglik sahələrində il ərzində 2 milyon fidanın yetişdirilməsi xüsusilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında meşəbərpa tədbirlərinə böyük təkan verəcək.

Nazir qeyd edib ki, bölgədə yerləşən xüsusi mühafizə olunan təbiət ərazilərinin fəaliyyətinin, buradakı bioloji müxtəlifliyin və təbiət abidələrinin bərpası istiqamətində də tədbirlər görülür. IDEA İctimai Birliyi və Ümumdünya Vəhşi Təbiəti Mühafizə Fondu ilə birgə bəzi heyvan növlərinin, ilkin mərhələdə ceyran və bezoar keçisinin öz tarixi areallarına reintroduksiyası layihələrinə başlanılıb, cari ildə artıq Cəbrayıl rayonu ərazisinə 33 baş ceyran buraxılıb. Regionda su bioresurslarının bərpası və artırılması məqsədilə Bəsitçay, Köndələnçay, Bərgüşadçay və Həkəri çaylarına, eləcə də Suqovuşan və Xaçınçay su anbarlarına davamlı olaraq müxtəlif növ balıq körpələri buraxılır. Tamamilə məhv edilmiş hidrometeoroloji müşahidə və ekoloji monitorinq şəbəkəsi yenidən qurularaq modernləşdirilir. Hazırda Şuşa, Ağdam, Füzuli, Kəlbəcər və Zəngilan rayonlarında 5 avtomat meteoroloji stansiya quraşdırılır. Dövlət Su Komissiyasının əlaqələndirməsi ilə Qarabağ və Şərgi Zəngəzur iqtisadi rayonlarının su ehtiyatlarından səmərəli istifadə ilə bağlı mühüm su təsərrüfatı infrastruktur layihələri icra olunur.

M.Babayev təəssüflə qeyd edib ki, işğaldan azad edilmiş ərazilərdə ekoloji terror bu gün də davam edir. Buna nümunə olaraq Ermənistan ərazisindən daxil olan transsərhəd çayların, xüsusilə Oxçuçayın ciddi çirklənməyə məruz qalmasını göstərmək olar. Beynəlxalq laboratoriyaların da cəlb olunduğu monitorinqlər nəticəsində Oxçuçayda ağır metallar və digər çirkləndiricilərin miqdarının normadan dəfələrlə çox olduğu qeydə alınmışdır. Məsələ ilə bağlı beynəlxalq təşkilatlara və bir sıra dövlətlərin müvafiq qurumlarına müraciət olunmuşdur. Hazırda Milli Elmlər Akademiyası və digər aidiyyəti qurumların nümayəndələrindən ibarət yaradılmış İşçi Qrupu tərəfindən monitorinq nəticələri təhlil edilərək Oxçuçayın su hövzəsinin ekoloji bərpası istiqamətində təkliflər hazırlanır. Ekoloji terrorun digər bariz nümunəsi Azərbaycan ərazilərində təbii ehtiyatların qanunsuz istismarının davam etməsidir. İşğal dövründə ölkəmizə məxsus 167 faydalı qazıntı yatağından 52-si heç bir ekoloji norma gözlənilmədən vəhşicəsinə istismara məruz qalıb.

"Dekabr ayının əvvəlindən başlayaraq Azərbaycan tərəfi Rusiya sülhməramlı kontingenti ilə onların müvəqqəti yerləşdirildiyi ərazilərimizdə təbii ehtiyatların qanunsuz istismarının dayandırılması, monitorinq və inventarlaşmanın aparılması, ətraf mühitə zərər və risklərin qiymətləndirilməsi və nəticələrinin aradan qaldırılması məsələlərini müzakirə edir. Sözsüz ki, bu vəziyyət cəmiyyətimiz tərəfindən normal qarşılana bilməz. Biz ictimaiyyətin narahatlığını başa düşürük. Bildiyiniz kimi, şaxtalı havaya baxmayaraq, vətəndaş cəmiyyətinin nümayəndələri, qeyri-hökumət təşkilatlarını təmsil edən ekoloji fəallar Laçın-Şuşa yolunda etiraz aksiyası keçirirlər. Aksiyanın məqsədi Azərbaycan ərazilərində təbii ehtiyatların qanunsuz istismarının dayandırılmasıdır" ,-deyən nazir əminliyini ifadə edib ki, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış çərçivəsində ekoloji bərpa işlərinin həyata keçirilməsi son nəticədə bu ərazilərdə təbiətin dirçəlməsinə gətirib çıxaracaq.

Nazir, həmçinin 2023-cü il - "Heydər Əliyev ili" çərçivəsində ETSN-nin Yeni Azərbaycan Partiyası və tərəfdaş təşkilatlarla birgə ölkə ərazisində, o cümlədən işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı ekoloji tədbirlər həyata keçirəcəyini diqqətə çatdırıb.

Konfransda elm və təhsil naziri Emin Əmrullayev "Böyük Qayıdışda insan kapitalının rolu" mövzusunda çıxış edib. Nazir bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsi təhsil sahəsində də yeni bir səhifə açıb. Onun sözlərinə görə, işğaldan azad edilən ərazilərdə təhsil infrastrukturunun qurulması ilə yanaşı, tarixi hadisənin Azərbaycanda ümumtəhsil sisteminin daha da təkmilləşməsində rolu olacaq: "Hər bir sistemi irəliyə aparan lokomotiv olmalıdır. Vaxtilə işğal altında olan ərazilərimizdə təhsil infrastrukturu da tamamilə dağıdılıb. Ona görə də qarşıda bizi ciddi quruculuq işləri gözləyir. Qarabağda yaradılacaq məktəblər, yəqin ki, Azərbaycan təhsilinin məzmununda və mahiyyətində dəyişikliklər etməyə imkan verəcək. Bütün bu məktəblər mahiyyətinə, dizaynına görə ən müasir infrastruktura malik olacaq. Zaman sürətlə dəyişdiyindən təhsilin də məzmununun dəyişməsinə ehtiyac var. Bu mənada, azad edilmiş ərazilərə Böyük Qayıdışın başlaması fonunda təhsildə də yeni yanaşmaların həmin məktəblərdə bərqərar olması qarşıda duran əsas hədəflərdəndir. Həmin məktəblərdə şagirdlərə yeni məzmunlu müasir təhsilin verilməsinə imkan yaranacaq. Digər bir məsələ odur ki, işğaldan azad edilmiş ərazilərdə aparılan infrastruktur, tikinti, quruculuq işləri əmək bazarında ciddi aktivlik yaradacaq. Görülən işlərin səmərəliliyini artırmaq üçün ixtisaslı kadrların olması vacibdir".






Hazırda məcburi köçkün ümumtəhsil məktəblərinin köçürülməsi üçün bəlli planlama işlərinin aparıldığını deyən nazir qeyd edib ki, 30 il ərzində çox mühüm dəyişikliklər olub və həmin insanların qayıtması ilə bağlı planlama işi mütləq aparılmalıdır. "Həmin əraziyə qayıdan insanların əmək bacarıqları ilə bağlı məsələ də araşdırılmalıdır. Bu, çox vacibdir", - deyə nazir əlavə edib.

Suqovuşanda artıq məktəbin tikintisinin başa çatdığını vurğulayan nazir söyləyib ki, azad edilən ərazilərdə 197 məktəbəqədər təhsil müəssisəsi tikiləcək: "Məcburi köçkün məktəblərinin həmin bölgələrə köçürülməsi istiqamətində planlı işlər aparılır. 5-7 il ərzində Azərbaycanda standartdan kənar məcburi köçkün məktəbi anlayışı olmayacaq. Bu prosesdə yeni bacarıqlar olduqca vacibdir".

Nazir bildirib ki, növbəti tədris ilinin əvvəlində Şuşa şəhərində inşa edilən məktəb təhvil veriləcək. Onun sözlərinə görə, müəllimlərin işğaldan azad edilmiş ərazilərdə işləməyə həvəsi böyükdür. Artıq 800-ə qədər müəllim işləmək arzusunu ifadə edib. Amma ilk növbədə həmin ərazilərin sakini olan müəllimlərə üstünlük veriləcək. "Zəngilan, Kəlbəcər, Füzuli şəhərlərində peşə liseylərinin layihələndirilməsinə başlanılıb", - deyə E.Əmrullayev əlavə edib.

Tədbirdə "Böyük Qayıdış: Şəhərsalma siyasətinin hədəfləri" mövzusunda çıxış edən Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev bildirib ki, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın tərtibatı zamanı mütərəqqi beynəlxalq təcrübə, strateji inkişaf tendensiyaları nəzərə alınmaqla 6 prioritet məqsəd müəyyən edilib ki, bunlardan biri də "Ərazilərdə şəhər, qəsəbə və kənd yaşayış məntəqələrinin tikintisi və infrastrukturla təmini"dir. Proqrama əsasən aparılan bütün yenidənqurma, bərpa və şəhərsalma işlərinin qabaqcıl urbanizasiya modellərinin tətbiqi ilə reallaşdırılması əsas götürülüb. Yaşayış məntəqələrində iqtisadi məhsuldarlığın artırılması, həyat səviyyəsinin yüksəldilməsi və dayanıqlılığın möhkəmləndirilməsi üçün bütün infrastrukturun sistemli planlanması istiqamətində hədəflər müəyyən olunub.

Onun sözlərinə görə, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində sosial-iqtisadi, humanitar, təşkilati və digər təxirəsalınmaz məsələlərin həlli ilə bağlı Strateji Fəaliyyət Planı"na müvafiq olaraq Komitə tərəfindən həyata keçirilən işlər çərçivəsində birinci addım olaraq "İşğaldan azad edilmiş ərazilərin Ümumi planı"nın - təməl şəhərsalma sənədinin hazırlanması təmin edilib. Ümumi plan Qarabağ və Şərqi Zəngəzurun işğal altında olmuş Ağdam, Füzuli, Xocalı, Xocavənd, Şuşa, Tərtər, Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarının və Xankəndi şəhərinin ümumi ərazisini əhatə edir. Layihənin istinad ili 2020-ci il götürülməklə hesabat müddətinin son tarixi kimi 2040-cı il qəbul edilib. Ümumi Plan bu müddət üçün ərazinin inkişaf strategiyası və siyasətinin əsas istiqamətlərini müəyyən edərək, yaşayış məskənlərinin əlaqələndirilmiş inkişafını təmin edəcək, dayanıqlı, rasional və rəqabət qabiliyyətli ərazi inkişafına xidmət edəcək. Ümumi planda ərazilərin inkişafı sosial-iqtisadi inkişafla vəhdətdə nəzərdən keçirilib, məskunlaşmada nizamlamanın bərpası və əhalinin geri qayıdışının təşviqi üçün vacib olan tələbatlar nəzərə alınıb.

Qeyd edilib ki, cari ildə regionun mərkəzi və ən iri şəhəri olan Ağdam şəhərinin Baş planının hazırlanması tam başa çatdırılıb, aidiyyəti dövlət qurumları ilə razılaşdırılaraq Nazirlər Kabinetinin 16 avqust 2022-ci il tarixli müvafiq qərarı ilə təsdiq edilib. Füzuli şəhərinin Baş planı üzrə də layihə işləri tam başa çatıb və hazırda sənədin aidiyyəti dövlət qurumları ilə razılaşdırılması prosesi bitmək üzrədir. Digər şəhərlərin Baş planlarının konsepsiyalarının və əsas cizgilərinin hazırlanması başa çatdırılıb, müfəssəl planlaşdırma işləri davam etdirilir və növbəti ilin 1-ci yarısında başa çatması nəzərdə tutulur. Ümumi planın həllərinə uyğun olaraq cari ilin aprel-may aylarından başlayaraq azad edilmiş 9 rayon üzrə 40-a yaxın qəsəbə və kənd yaşayış məntəqələrinin də ərazi planlaşdırılması sənədlərinin hazırlanması aparılır, bəziləri üzərində işlər artıq başa çatdırılıb.

A.Quliyev vurğulayıb ki, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" üzrə nəzərdə tutulan tədbirlərin icrası ilə bağlı ilkin mərhələdə bərpa olunacaq 100 yaşayış məntəqəsindən (8 şəhər, 8 qəsəbə və 84 kənd) 7 şəhər və 36 qəsəbə və kənd olmaqla - ümumilikdə 43 yaşayış məntəqəsinin ərazi planlaşdırılması sənədləri hazırlanmaqdadır. Həmin kəndlərdən üçünün - Ağdam rayonunun Xıdırlı, Kəngərli və Sarıcalı kəndlərinin cənab Prezident tərəfindən 4 oktyabr 2022-ci il tarixində təməli qoyulub. Qalan 57 yaşayış məntəqəsi üzrə isə 2023-cü ildə 38 yaşayış məntəqəsinin, o cümlədən Laçın şəhərinin, eləcə də 37 qəsəbə və kəndin, 2024-cü ildə isə 19 yaşayış məntəqəsinin layihələndirilməsi, ikinci mərhələdə bərpası nəzərdə tutulan yaşayış məntəqələrindən isə 37 ədədinin 2025-2026-cı illərdə layihələndirilməsi planlaşdırılır. Ümumilikdə Dövlət Proqramı ilə 2022-2026-cı illər ərzində yaşayış məntəqələrində çoxmənzilli binaların və fərdi yaşayış evlərinin inşası ilə bağlı mərhələli şəkildə tədbirlərin görülməsi və 34500 ailənin doğma torpaqlarına köçməsi nəzərdə tutulur.

Sonda konfrans iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevə müraciət qəbul olunub.

# “Qərbi Azərbaycana uzanan yolumuz uğurludur”

## Komitə sədri şərh etdi

**“Erməni faşizmi üzərində tarixi qələbədən sonra Azərbaycan xalqı özünün ən xoşbəxt və qürurlu günlərini yaşayır. Azərbaycan Prezidenti, müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin düşünülmüş siyasəti, ordumuzun şücaəti və qüdrəti, xalqımızın birliyi və səfərbərliyi döyüş meydanında olduğu kimi, indi sosial iqtisadi inkişafda, bərpa quruculuq işlərində, sərhədlərimizin təhlükəsizliyində öz bəhrələrin verir və həyatımızı mənalandırır.” Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib.**






Komitə sədri vurğulayıb ki, Qarabağ torpaqlarının işğaldan azad edilməsi bu gün Qərbi Azərbaycan torpaqların, İrəvanın, Göyçənin, Dərələyizin, Zəngəzurun azadlığına və uzun illər həsrət içərisində yaşayan insanların o torpaqlara qayıdışına yollar açır və bu unudulmaz tarix, müqəddəs amal, ürəkləri riqqətə gətirən duyğulardı.

”Ulu Öndərimiz Heydər Əliyev Qarabağ torpaqlarının düşməndən azad ediləcəyinə əmin idi. Prezidentimiz cənab İlham Əliyev erməni faşistlərinə bu torpaqlarda yer yoxdu deyirdi və verdiyi vədə əməl etdi. Düşmənin başı əzildi. Bu gün Ali Baş Komandan Qərbi Azərbaycan torpaqlarına qayıdacağımızın anonsunu verir, dünyaya bir daha haqqın, ədalətin, yeni mübarizənin mesajlarını göndərir və Qərbi Azərbaycan icmasının yığıncağında qətiyyətlə bildirir ki, biz mütləq ata-baba torpaqlarımıza qayıdacağıq. Çünki Qərbi Azərbaycan bizim tarixi torpaqlarımızdır. Bunu tarixi sənədlər, xəritələr, keçmişimiz təsdiqləyir. Ermənilər bu torpaqlara gəlmədilər və 1918-ci ildə bu torpaqlar üzərində qondarma erməni dövləti yaratmışlar. Həmin dövrdən başlayaraq onlar 1918-1920, 1948-1953, 1988-1992-ci illərdə azərbaycanlıları zor gücünə öz ata-baba torpaqlarından çıxarmış, tarixi-dini, mədəni abidələrimizi məhv ediblər. Yüzlərlə yaşayış məsgənlərimizin, abidələrimizin adı, ünvanı onlar tərəfindən dəyişdirilibdir. Bütün bunlara baxmayaraq xalqımız əsrlər boyu öz hüquqlqrını qorumaq, doğma torpaqlara qayıtmaq üçün fədakarlıq göstərib, həsrətli bir ömür yaşayıb. Ancaq erməni xəyanətkarlarının, onların havadarlarının səyləri nəticəsində bu mümkün olmayıbdır. Lakin indi dövr-zaman dəyişib, Cənubi Qafqazda Azərbaycan yeni reallıqlar yaratmağa, qatı düşmənlərimizin səsini kəsməyə, xalqımızın haqlı tələblərini dünya ictimaiyyətinə çatdırmağı, qüdrətli dövlət və ordu yaratmağa nail olubdur.

Bu gün Azərbaycan Prezidenti xalqın səsini, haqqımızı, istəyimizi dünyaya çatdırmağa, ən çətin sədləri, maneləri dəf etməyə qadirdir. Dövlətimizin rəhbəri ”Qarabağ Azərbaycandır” nidaları ardınca indi, ”Qərbi Azərbaycan tarixi torpaqlarımızdır” kəlmələrini səsləndirir. Hər birimiz bu sözləri qürurla dinlədik və ürəyimizə yazdıq. Dinləmələrlə bərabər elə bilirəm hamımız bu ali məqsədin, müqəddəs amalın təbliğatçısı, təşkilatçısı, yol yolçusu olmalıyıq. Hər an, hər saat ölkə rəhbərinin fikirlərinin, istəklərinin həqiqətə qovuşması naminə əlimizdən gələni əsirgəməməliyik. Azərbaycan ərazi baxımından kiçik olsa da Prezidenti çox böyükdür. Böyük olanın amalları da, əməlləri də böyükdür. Qərbi Azərbaycana uzanan yolların, qolların, arzuların sahibi, İlhamçısı Prezidentimiz, Ali Baş Komandanımızdır və əminik ki, yolumuz uğurlu, sabahımız işıqlı olacaqdır”, deyə Tahir Rzayev bildirib.

***İnam Hacıyev***

# Ulu öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş ağacəkmə aksiyası keçirilib







**Dekabrın 24-də Səs Media Qrupu, YAP Səbail rayon təşkilatı və SSAL-2 MMC şirkəti ilə birlikdə Səbai rayonu ərazisində ağacəkmə aksiyası keçirilib. SİA-nın verdiyi məlumata görə, aksiyada 100 ədəd şam ağacı əkilib.**

Yeni Azərbaycan Partiyasının Səbail Rayon təşkilatı yaxınlığında əkilən ağaclar Ulu Öndər Heydər Əliyevin 2023-cü ildə qeyd olunacaq 100 illiyinə, həmçinin Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən imzalanan ”2023-cü ilin Heydər Əliyev ili” elan olunmasına həsr olunub. Tədbirdə Səs Media Qrupunun, YAP Səbail Rayon təşkilatının, SSAL-2 MMC şirkətinin nümayəndələri iştirak ediblər.

***Banuçiçək Hüseynli***

# “Böyük Qayıdış: İlham Əliyev siyasətinin təntənəsi” mövzusunda keçirilən konfrans iştirakçılarının Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevə

# MÜRACİƏTİ

**“Böyük Qayıdış: İlham Əliyev siyasətinin təntənəsi” mövzusunda keçirilən konfrans iştirakçılarının Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevə**
MÜRACİƏTİ

Möhtərəm cənab Prezident!

Heydər Əliyev ideyaları əsasında müstəqillik və tərəqqi yolunda inamla addımlayan Azərbaycan çoxəsrlik tarixinin ən qüdrətli dövrünü yaşayır və möhtəşəm uğurlara imza atır. Xüsusilə də, Vətən müharibəsində Sizin komandanlığınızla Azərbaycan Ordusunun qazandığı şanlı Zəfər təkcə 30 il ərzində hərbi-siyasi əsarətdə qalmış doğma yurd-yerlərimizin azad olunması ilə deyil, eyni zamanda, tarixi ədalətin və milli qürurumuzun bərpası ilə əlamətdardır. 44 günlük Zəfər yürüşünün hər anı, hər məqamı qəhrəmanlıq dastanı, əzmkar Azərbaycan xalqının şərəfli mübarizə nümunəsidir.

Tariximizdə bənzəri olmayan bu qürurverici hadisə - parlaq Qələbə nəticəsində yeni çağırışlar və reallıqlar meydana çıxmış, hərb müstəvisində qazanılmış Zəfərin diplomatik arenada və quruculuq meydanında möhkəmləndirilməsi üçün yeni hədəflər müəyyən olunmuşdur. Bu kontekstdə işğaldan azad edilmiş ərazilərdə Sizin rəhbərliyiniz və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın fəal iştirakı ilə məqsədyönlü bərpa-quruculuq işlərinin aparılması və müasir konsepsiyalar əsasında nəhəng infrastrukturun yaradılması xalqımızın daha bir arzusunun yerinə yetirilməsinə - Böyük Qayıdışın yüksək səviyyədə təmin olunmasına geniş imkanlar yaradır.

Bu gün qürurlu və müzəffər xalqın nümayəndələri, qalib və qüdrətli Azərbaycan dövlətinin məğrur vətəndaşları kimi işıqlı gələcəyə aparan yolda birgə addımlayır, işğaldan azad edilmiş ərazilərdə qurub yaratmaqla tarixi Qələbə ovqatında Zəfər yürüşünü davam etdiririk. Sizin əminliklə vurğuladığınız kimi, ”biz bu torpaqlara, doğma torpaqlarımıza əbədi qayıtmışıq və burada əbədi yaşayacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!”.

Azərbaycan xalqı şanslı və xoşbəxtdir ki, Vətənə, xalqa və dövlətə sədaqət andını, ata vəsiyyətini şərəflə yerinə yetirən, sözü imzası qədər dəyərli olan qətiyyətli Lider - Sizin rəhbərliyiniz altında zirvələr fəth edir, şanlı tarix yazır və adını tarixə əbədi həkk etdirir.

Hörmətli cənab Prezidentimiz!

Biz, konfrans iştirakçıları tariximizin ən parlaq Qələbəsini Azərbaycan xalqına bəxş etdiyiniz, uca millətimizi Zəfər zirvəsinə yüksəltdiyiniz, üçrəngli bayrağımızın işğaldan azad edilmiş ərazilərdə əzəmətlə dalğalanmasını təmin etdiyiniz və Böyük Qayıdış arzularını reallığa çevirdiyiniz üçün Sizə dərin təşəkkürümüzü ifadə edir, sonsuz minnətdarlığımızı bildiririk.

Fürsətdən istifadə edərək Sizi doğum gününüz və qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü, Yeni il münasibətilə səmimi-qəlbdən təbrik edir, Zati-alinizə möhkəm cansağlığı, dövlətçilik maraqlarına, xalqımızın ali mənafeyinə və milli-mənəvi dəyərlərə əsaslanan çoxşaxəli fəaliyyətinizdə yeniyeni nailiyyətlər arzulayırıq. Allah Sizi qorusun!

Yaşasın Azərbaycan!

Eşq olsun Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevə!

***Bakı şəhəri, 24 dekabr 2022-ci il***



# Danışıqlardan qaçan ERMƏNİSTANIN QORXUSU





**Hər zaman olduğu kimi, Ermənistan tərəfi yenə də razılaşmalardan, hətta danışıqlardan belə yayınır və bu uyğunsuz, uğursuz siyasətinə don geyindirməyə də çalışır. Danışıqlardan yayınmalarını qorxaqlıq deyil, "cəsarət" kimi qələmə vermək istəyənlərin xəstə təxəyyülə sahib olduqları heç kimdə şübhə doğurmur. Üçtərəfli bəyanatın şərtlərinə bu zamana qədər əməl etməyən, razılaşmalara məhəl qoymayan rəsmi İrəvan birbirinin ardınca danışıqlardan da qaçır ki, bunun adı "cəsarət" deyil, qorxaqlıq və pozuculuqdur. Cəsarət döyüş meydanında, diplolmatik müstəvidə özünü biruzə verir və danışıqlardan qaçmaq, ümumiyyətlə, erməni xislətinə məxsus "qaçış" heç zaman "cəsarət" sayılmayıb.**

Ötən həftənin cümə axşamı erməni baş nazir Nikol Paşinyanın hökumətin iclasında Rusiya sülhməramlılarına qarşı sərt iddialar səsləndirməsi Moskvanın ünvanına açıq-aşkar qınaq hesab olunur. Kreml bunu çox yaxşı başa düşür və heç şübhəsiz ki, Paşinyanın, eləcə də onun hakimiyyətinin bu həddsizliyi "nəzərə alınacaq" ruslar tərəfindən. Hər dəfə görüş zamanı Rusiya prezidentinin qarşısında büzüşərək oturan, boynunu burub dayanan, başını aşağı sallayıb qul kimi itaətkarlıq nümayiş etdirən, əvəzində də Moskvadan yardımlar dilənən Vovayeviçin bu həddsizliyinə Moskvanın cavabsız qalmayacağını özü hamıdan yaxşı bilir. Maraqlıdır, o zaman niyə bu həddsizliyi edir? Əlbəttə ki, bu, yenə də daxili auditoriyaya hesablanmış addım hesab olunur və rəhbərlik etdiyi ölkədə kütlənin qarşısına çıxa bilməyən, qəzəbindən qorxan, müxalifətin ona qarşı çıxmasından ehtiyat edən, bir sözlə, öz kürsüsünü əldən vermək qorxusu ilə yaşayan Nikol vaxt qazanmağa çalışır və ölkəsinin taleyini deyil, özünü düşünür, özü üçün çalışır, əvəzində də ölkəsini tamamilə məhv olmaqdan xilas edən ölkəyə qarşı nankorluq edir.

Ermənistan hakimiyyəti özünü dələduz, ərköyün uşaq kimi aparır, gah danışıqlardan, məsələnin həlli üçün müzakirələrdən dəm vurur, gah da nə danışıqlarda iştirak edir, nə də müzakirələrə qatılır. Rəsmi İrəvanın bu tərzi artıq rezonans doğurmaqdadır və buna, bu davranışlarına artıq nə Fransa və nə də onun ermənipərəst prezidenti don geyindirə bilməz. Qərb özü də Ermənistanın belə davranışlarından şokdadır və buna nə ad qoymaq lazım olduğunu kimsə bilmir. Bircə dənə erməni cəmiyyəti, olmayan bir şeydən mif yaradan cəmiyyət bunu "cəsarət" kimi adlandırmaq istəyir, amma yanılır, çünki bu səyləri əbəsdir və bunun uğursuzluq, uyğunsuzluq olduğunu hər kəs başa düşür. Rusiya Federasiyasının paytaxtında Lavrov və Bayramovla ilkin olaraq planlaşdırılan üçtərəfli görüşə Mirzoyanın gəlməməsi "qoçaqlıq", ya da "cəsarət" deyil, yanlış erməni siyasətidir ki, bunun adına qorxaqlıq və pozuculuq deyilir. O halda Qərb necə don geyindirə bilər bu addıma? Baxmayaraq ki, görüş Qərb üçün rəqib sayılan meydanda, Rusiyada keçirilirdi, ən azında diplomatik normaların nəzərə alınmalı olduğunu Qərb də qəbul edir və bilir ki, Ermənistan danışıqlara, razılaşmalara məhəl qoymadığını heç olmasa açıb ortaya qoymalı idi. Amma Ermənistanın mövcud hakimiyyətinin nümayəndəsi buna da məhəl qoymadı və sanki dələduz, ərköyün uşaq kimi ağlına gələni etdi, özü də, ölkəsi də ifşa olundu, hansı ki, indi sığınmaq arzusunda olduqları Qərb də bunu gördü.

Rusiya Xarici İşlər Nazirliyinin rəhbəri Sergey Lavrovun, Ermənistan XİN rəhbərinin Moskvadakı üçtərəfli görüşdə iştirakdan imtina etməklə fürsəti əldən verdiyini bildirməsi təsadüfi deyildi. Hər kəs bilir ki, Ermənistan tərəfi dalbadal fürsəti əldən verir və görüşlərdə iştirak etməkdən yayınmaqla özü-özünü çətin duruma salır. Elə Rusiya XİN rəhbəri də bunu açıq-aşkar şəkildə bəyan etdi. Açıq-aşkar bəyan etdi ki, bu, Ermənistanın uduzması deməkdir. "Hər dəfə hər hansı insidentdən sonra tərəflərdən biri razılaşdırılmış danışıqlar raundlarından imtina edərsə, münaqişələr daha uzun müddət davam edər. Bu, heç vaxt, heç kimə xeyir gətirməyib. Hətta öz mövqeyini dünya ictimaiyyətinə çatdırmaq nöqteyi-nəzərindən erməni həmkarımız burada da uduzdu", deyə Lavrov bəyan edib və gösətərib ki, növbəti dəfə də uduzan Ermənistan hakimiyyətinin bu davranışını, bu tərzini dünya ictimaiyyəti də müsbət qarşılamaz. Deməli, Rusiya XİN rəhbəri Ermənistana kəsə şəkildə bir mesaj da ünvanlayıb ki, Qərb də onların uğursuz, uyğunsuz hərəkətlərini normal qəbul etməz və onlara da ümid etmələri mənasızdır.

Hər dəfə danışıqları təxirə salmaq, ən azından ləngitmək, razılaşmalardan boyun qaçırmaq məqsədi ilə müxtəlif bəhanələr uyduran, guya şərt irəli sürmək adı ilə manevrlər yaradan Ermənistan tərəfinin çoxdandır ki, BMT, ATƏT və ya ATƏT-in Minsk Qrupunun missiyalarının rus sülhməramlılarını əvəz etməsi barədə cəfəngiyyatları artıq rezonans doğurmaqdadır. Bunu 44 günlük müharibənin sonunda Ermənistanı məhv olmaqdan xilas edən dövlətin, Rusiyanın XİN rəhbəri açıq-aşkar şəkildə ifadə edib. "Rusiya sülhməramlılarını BMT, ATƏT və ya ATƏT-in Minsk Qrupunun missiyaları ilə əvəz etmək istəyi suallar doğurur", deyə Sergey Lavrov Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla danışıqların yekunlarına dair mətbuat konfransında diqqətə çatdırıb və bəyan edib ki, Ermənistan tərəfinin bu istəyi cəfəngiyyatdır. Əlbəttə, Rusiya XİN rəhbəri məsələnin mahiyyətini başa düşür və bilir ki, ermənilərin bu təklifinin reallaşması üçün tərəflərin, ilk növbədə Azərbaycan və Ermənistanın razılığı lazımdır. Təkcə Ermənistanın arzuları, istəkləri heç bir mahiyyət kəsb edə bilməz, nəticəyə təsirsizliyi də təkzibedilməzdir. "Əvvəla, bunun üçün tərəflərin, ilk növbədə Azərbaycan və Ermənistanın razılığı tələb olunur. Digər tərəfdən də əgər belə bir maraq varsa və bu ciddi maraqdırsa, yəqin ki, bunu ilk növbədə Rusiya sülhməramlı kontingentinin göndərilməsi barədə qərar qəbul edənlərə təklif etmək lazımdır və danışıqlar masası arxasına əyləşmək və bu barədə düşünmək lehinə çıxış etmək gərəkir", deyə rusiyalı nazir TASS-ın sualını cavablandırarkən bəyan edib və bununla da Ermənistan tərəfinə istəklərinin, irəli sürdükləri təkliflərin cəfəngiyyat olduğu barədə kəskin bir mesaj verib.

Həqiqətən də Rusiya sülhməramlıları özbaşına gəlib ərazidə məskunlaşmayıb və hansı səbəblərdən, nəyə görə gəldiyi hər kəsə bəllidir. Azərbaycanın 44 günlük müharibədə qazandığı məntiqi qələbəsindən və Ermənistanın rüsvayçı məğlubiyyətindən sonra çıxış yolu olmayan rəsmi İrəvan, erməni baş nazir Nikol Paşinyanın əli ilə təslimiyyətə, kapitulyasiya sənədinə imza atarkən, nəinki könüllü şəkildə, hətta arzu edərək rus sülhməramlılarının bölgədə yerləşməsinə daha maraqlı idi və bunun üçün əldən-ayaqdan getdiyini də bilməyən yoxdur. Qərb özü də yaxşı bilir ki, rus sülhməramlılarının ərazidə yerləşdirilməsi Ermənistana lazımdır, Azərbaycana yox və bu baxından rus sülhməramlı kontingentinin yerləşdirilməsində kimin maraqlı olduğunu dərk edir və indi ermənilərin bunun əleyhinə sərsəm fikirləri hamı üçün cəfəngiyyat sayılır. Azərbaycan tərəfinin sülhməramlı kontinhentinə ehtiyacı olmayıb, yoxdur da. Razılaşmaların şərtlərinə uyğun olaraq sülhməramlıların bölgədə qalma müddəti başa çatdıqdan sonra onların bölgəni tərk etməsində ölkəmizin maraqlı olduğu da, buna Rusiya prezidenti Vladimir Putinin münasibəti də, onların ərazidən çıxarılması barədə tələb, yaxud təklifə heç bir dirənişin olmayacağı barədə fikirləri də bəllidir. Hətta rus sülhməramlılarının vaxtı bitdiyi zaman bölgəni tərk edəcəyinə görə erməni cəmiyyətində indidən həyəcan təbili çalanlar da var, çünki onlar bilirlər ki, yalnız sülhməramlıların kölgəsində kölgələniblər və rus sülhməramlılarının daimi olaraq bölgədə qalması barədə bir qədər əvvəl məsələ qaldırmaları da təsadüfi deyildi. İndi bütün bunların fonunda Rusiya sülhməramlılarının bölgəni tərk etməsi, BMT, ATƏT və ya ATƏT-in Minsk Qrupunun missiyaları ilə onları əvəz etmək istəyi məntiqi baxımdan belə absurd səslənir.

Təbii ki, rusların ətəyindən yapışan, onların kölgəsində kölgələnən ermənilər bunun nəticəsiz olduğunu gördükləri zaman, ələlxüsus sülhməramlıların gözü önündə ekoaktivistlərin dinc aksiyalarını müşahidə etdikləri vaxt qorxu hissi keçirməyə başlayıblar. Ələlxüsus, sülhməramlıların bölgədə olması fonunda ekoaktivistlərin ekoloji terrora son qoyulması tələbi səsləndirmələri, rus sülhməramlı kontingentinin bunun qarşısını ala bilməməsi ermənilərin yuxularını ərşə çəkib. Dünyaya hay salan haylar yenə də ermənilərin "əzabkeş obrazını" yaratmağa, guya əzildiklərini göstərməyə çalışırlar, amma bu da fiaskoya uğramaqdadır, çünki bütün dünya ölkəmizin, Azərbaycan xalqının ekoloji terrorun qarşısının alınması istiqamətində haqlı tələblərlə çıxış etdiyini də, heç bir humanizm prinsplərini pozmadığını da bilir. Düzdür, ikili standartlar siyasəti yürüdən qüvvələr buna don geyindirməyə çalışa bilərlər, bu gözlənilməndir, amma heç bir qüvvə ümumilikdə dünyanın problemi sayılan ekoloji terrora qarşı çıxanları hədəfə ala bilməz. Ermənistan tərəfi yaxşı bilir ki, Azərbaycan bu məsələdə də haqlıdır və tələblərinə qarşı gəlinəcəyi ağlasığmazdır. Bu isə Azərbaycanın növbəti qələbəsi, ermənilərin Qarabağ ərazisində ekoloji terrorunun sonu, hətta həmin ərazilərdə ya ölkəmizin vətəndaşı kimi qanunlarımızı qəbul edərək onların dinc yaşaması, ya da ərazilərimizi tərk edib gedəcəkləri deməkdir. Danışıqlardan qaçan Ermənistanın qorxusu da elə budur və məhz bu qorxu altında rəsmi İrəvan danışıqlardan qaçmağı, yayınmağı çıxış yolu hesab edir. Bu isə çıxış yolu deyil, çünki bəlli bir məqamda cavabdehlik daşımalı olacaqlar, eyni ilə, qorxunun əcələ faydası olmadığı kimi.

***İnam Hacıyev***

# ABŞ-a qarşı Almaniya-Çin birliyi

## Berlin Pekinlə konstruktiv əlaqə saxlamaqla Vaşinqtona meydan oxuyur



***Almaniya kansleri Olaf Şolzun Çinə səfəri bir çox suallar yaratdı və eyni zamanda bəzi mətləblərə də aydınlıq gətirdi. Bir az irəli gedərək deyə bilərik ki, rəsmi Berlinin Pekinlə əlaqələri genişləndirmək barədə əlaqələri təkcə iqtisadi-ticari sektorda hansısa yüksəlişin olacağı ilə bağlı deyil. Əslində məsələnin kökündə başqa məqsədlər dayanır. Bütün bu olanların üzərindən sirr pərdəsinin qalxmasına da, çox təəccüblü də olsa, Rusiyanın Ukraynaya hərbi müdaxiləsi səbəb oldu. Niyə? Biz də bunu izah etməyə çalışacağıq.***

Rusiya Ukraynadan özünə qarşı təhlükənin olduğunu və bu təhlükələrin hər keçən gün ərzində daha da artdığını səbəb kimi göstərib artıq 10 aydır ki, davam edən müharibəni başlatdı. Bu müharibə təkcə torpaq, insan, infrastruktur itkisi ilə qoşa addımlamır, həm də dünya nizamında, beynəlxalq münasibətlər sistemində yeni düzəmi müəyyənləşdirdi. Köhnə dostlar düşmən, əzəli düşmənlər isə dost oldular, amma hələlik. Çünki nə müharibə, nə də maraqlar səngiməyib. Ukraynada Rusiyanın apardığı "xüsusi hərbi əməliyyat" həm də Qərblə Şərqi, NATO ilə BRİKS-i (Braziliya, Rusiya, Hindistan, Çin və Cənubi Afrika Respublikası) üz-üzə qoydu, onları ölüm-dirim savaşına qarxmağa vadar etdi. Rusiya Azropa bazarından zorla, sanksiya və embarqolarla çıxarılandan sonra onun yerini dolduracaq birisini axtarmaq belə lazım gəlmədi. Avropa ölkələri "Şimal axını-2"-də baş verən qəzadan sonra Ukrayna müharibəsinin də, Rusiyanın Avropa bazarından qovulmasının da əsl səbəbini öyrənə bildilər. Məsələ ipə-sapa yatmayan Putin Rusiyasının bazarlardan çıxarılması və onun yerini isə ABŞ-ın tutması imiş. Bu, belə də oldu. Avropanı Rusiya təhlükəsindən qorumaq adı altında NATO-ya üzv ölkələrin ərazilərində hərbi qüvvələr yerləşdirən Vaşinqton müharibəyə qədər planlarını qismən gizlədə bilsə də hadisələrin sürətləndiyi son aylarda artıq bunu pünhan saxlamağa gücü yetmədi.

Bu gün Rusiyanın olmadığı Avropanın mavi yanacaq və neft bazarında ABŞ şirkətləri at oynadır. Sıxılmış qazla dolu gəmilərin sayı səbəbindən Atlantik okeanında "trafik" yaranıb. ABŞ Avropanı karbohidrogen ehtiyatları ilə təmin edir. Üçüncü ölkələrdən aldığı yanacağı avropalılara çatdırır. Bəzi Avropa ölkələri bunu Vaşinqtonun lütfü kimi yozur, bir qismi isə məsələnin iç üzünü bilsə də susmağa üstünlük verir. Həm də ABŞ şirkətləri Avropaya qazı və nefti Rusiyanınkından fərqli olaraq baha qiymətə satır.

Qayıdaq Almaniyanın federal kanslerinin Çinə səfərinə. Olaf Şolzun bu səfərini Berlinin ABŞ-ın enerji pəncəsindən xilas olmaq cəhdi kimi də qələmə vermək olar. Alman hökuməti Vaşinqtondan asılı olmaq istəmir, bunu Berlinin iddiasına da yozmaq olar. Almanlar hesab edirlər ki, Amerikanı ispanlar kəşf etsələr də, irlandiyalılar ilk köçənlərdən olsalar da almanlar Amerikanın iqtisadi cəhətdən inkişafında əvəzolunmaz rola malikdirlər. Bu gün Amerikanı idarə edənlərin əksəriyyətinin soy-kökündə alman nişanələri var. Ona görə də Almaniya ABŞ-ın onun üzərində ağalıq etməsinə heç cür razı ola bilməz...

Alman kanslerin Çinə səfəri zamanı Fransa prezidenti Emmanuel Makronla niyə Çinə aparmadığı sualına cavabı da təxminən burada axtarmaq olar. Çünki Makron tam olaraq Vaşinqtondan "qidalanır", o amerikalıların iradəsindən kənar bir addım da ata bilmir və bilməz. Fransa lideri kanslerin Pekinə birlikdə getməsini təklif edib. Bunu həm də belə izah edib ki, Avropa Birliyi ölkələri atdıqları hər bir addımda birliyin maraqlarını nəzərə almalıdır. Lakin Olaf Şolz bundan imtina edərək Çin paytaxtına tək gedib. Orada o, Çin prezidenti Si Cinpinlə görüşüb. "Fakt budur ki, bu səfər mənim tərəfimdən ilk səfər kimi planlaşdırılıb. Mən onu hazırladım və həyata keçirdim ", - kansler Şolz Makronla Pekinə getməkdən imtinanı izah edib. "Asia Times" yazarının fikrincə, Berlin Pekinlə konstruktiv əlaqə saxlamaqla və onu Ukraynada unikal sülhməramlı kimi görməklə Vaşinqtona meydan oxuyur. Almaniya ABŞ-ın Çinlə tərəfdaşlığını pozmasına icazə verə bilməz - əks halda o, onların vassalı olacaq.

ABŞ Dövlət Katibi Entoni Blinken yəqin ki, özünü dünya polisi kimi təyin etdiyi rolda Almaniya, Çin və Rusiya arasında ona aid olmayan bütün işlərdən xəbərdar olmaq hüququna malik olduğunu düşünmüşdü. Lakin Blinkenin cümə günü, dekabrın 23-də Çinin xarici işlər naziri Wan Yiyə etdiyi zəng fiaskoya uğradı. Çox güman ki, o, Çin Prezidenti Si Tsinpinin ötən həftə Almaniya prezidenti Frank-Valter Ştaynmayer və Vahid Rusiya partiyasının sədri və keçmiş prezident Dmitri Medvedevlə apardığı yüksək səviyyəli iki danışıqların təfərrüatlarını toplayacağını gözləyirdi.

Göründüyü kimi, Blinken ağlabatan qənaətə gəlib ki, Ştaynmayerin çərşənbə axşamı Si ilə telefon zəngini və Medvedevin Pekinə gözlənilməz səfəri və çərşənbə günü Xi ilə görüşü təsadüfi deyil. Guya Medvedevin missiyası Xi-yə prezident Putindən çox həssas mesaj almaq olub. Son məlumatlara əsasən, Moskva və Pekin ayın sonunda gözlənilən Putin-Xi görüşü üzərində işləyir.

Ştaynmayer 2005-2009-cu illərdə və yenidən 2013-2017-ci illərdə Almaniya Xarici İşlər Nazirliyinin rəhbəri vəzifəsində və 2007-2009-cu illərdə vitse-kansler vəzifəsində çalışmış (haması 2005-2021-ci illərdə Angela Merkel dövründə) təcrübəli diplomatdır. Merkel isə Almaniyanın həm Rusiya, həm də Çinlə əlaqələrini gücləndirməklə tarixə düşüb. Eyni zamanda, social-demokrat Ştaynmayer hazırkı kansler Olaf Şolzun partiya üzvüdür. Şübhəsiz ki, onun Xi ilə telefon danışığı Scholz ilə razılaşdırılıb.

Daha da əhəmiyyətlisi, Ştaynmayer Kiyevdə ABŞ-ın başçılıq etdiyi çevrilişdən sonra Donbasda hərbi əməliyyatlara son qoymaq üçün tədbirlər paketini özündə əks etdirən iki Minsk razılaşması (2014 və 2015) üzrə danışıqlarda əsas rol oynayıb. 2016-cı ilə qədər Minsk razılaşmaları iflasa uğradığından, Ştaynmayer hiylə-gər plan hazırladı və sonradan "Ştaynmayer formulu" kimi tanındı. O, müqavilələrdə nəzərdə tutulan hadisələrin ardıcıllığını müəyyənləşdirdi.

Belə ki, "Ştaynmayer formula" Ukrayna qanunvericiliyinə uyğun olaraq və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) nəzarəti altında Donbasın separatçıların nəzarətində olan ərazilərində seçkilərin keçirilməsini nəzərdə tuturdu. Təklif edilib ki, ATƏT irade ifadəsini azad və ədalətli hesab edərsə, ərazilər xüsusi özünüidarə statusu alacaq. Təbii ki, bunların hamısı tarixdir. Bu yaxınlarda Merkel "Die Zeit" qəzetinə müsahibəsində "etiraf etdi" ki, əslində Minsk razılaşmaları sadəcə olaraq Qərbin Kiyevə yenidən silahlanma üçün "qiymətsiz vaxt" almaq imkanı vermək cəhdi idi.

Bu çətin fonda Ştaynmayer gözlənilmədən Si Cinpinə zəng edəndə Blinken şübhələnib,amma Medvedev elə ertəsi gün gözlənilmədən Pekində görünüb, Çin prezidenti ilə görüşüb. Pekinin Çinin həm Almaniya, həm də Rusiya ilə münasibətlərinə nikbin baxması başadüşüləndir.

Ştaynmayerə Si ikitərəfli münasibətlərin inkişafı ilə bağlı üç bəndlik təkliflə çıxış edib və bildirib ki, "Çin və Almaniya həmişə dialoq, inkişaf və əməkdaşlıqda tərəfdaş, qlobal problemlərin həllində isə tərəfdaş olublar". Medvedevlə görüşdə o, eyni şəkildə vurğulayıb ki, "Çin Rusiya ilə işləməyə, yeni dövrdə ikitərəfli münasibətləri inkişaf etdirməyə və qlobal idarəçiliyi daha ədalətli və ədalətli etməyə hazırdır". Hər iki halda müzakirə mövzuları arasında Ukraynanın adı çəkilib, Xi Çinin "sülh danışıqlarını asanlaşdırmağa" (Ştaynmayeri nəzərdə tutur) və "sülh danışıqlarını güclü şəkildə təşviq etməyə" (Medvedyevi nəzərdə tutur) sadiq olduğunu vurğulayıb. Lakin Blinken mübahisəli ABŞ-Çin məsələlərinə, xüsusən də Çinin "indiki koronavirus vəziyyəti"nə diqqət yetirərək və "beynəlxalq ictimaiyyət üçün şəffaflıq" tələb edərək öz missiyasını yöndəmsiz şəkildə yerinə yetirib.

Təəccüblü deyil ki, Wan Blinkeni "eyni zamanda dialoqa girməyə və saxlanmağa" və "əməkdaşlıq haqqında danışmağa, Çini kürəyindən bıçaqlamağa" cəhd etdiyi üçün sərt şəkildə danlayıb. Wan, "Bu, ağıllı rəqabət deyil, mənasız təzyiqdir. Bu, mübahisənin həllinə kömək etməyəcək, əksinə, münaqişəni daha da gərginləşdirəcək. Əslində, bu, uzun müddətdir davam edən birtərəfli hədə-qorxu praktikasıdır. O, heç vaxt Çinlə işləməyib və gələcəkdə işləməyəcək".

Ukrayna ilə bağlı Wan deyib: "Çin həmişə sülhün tərəfində olub və BMT nizamnaməsinə və beynəlxalq ictimaiyyətin sülh və danışıqları təşviq etmək məqsədlərinə sadiq qalıb. Çin böhranın həllində konstruktiv rol oynamağa davam edəcək". Dövlət Departamentinin məlumatına görə, Blinken Wangla Ukrayna ilə bağlı məhsuldar söhbət apara bilməyib. Deməyə ehtiyac yoxdur ki, Pekinlə bağlı son alman sənədləri, o cümlədən kansler Şolzun keçən ay top menecerlərdən ibarət nümayəndə heyəti ilə Çinə yüksək profilli səfəri və keçən həftə Ştaynmayerin telefon danışığı da daxil olmaqla, Vaşinqton tərəfindən təsdiqlənməyib.

Co Bayden administrasiyası Almaniyanın Çinə qarşı öz təşəbbüslərini yerinə yetirməkdənsə, ilk növbədə Vaşinqtonla hərəkətlərini koordinasiya edəcəyinə ümid edir. Almaniya Xarici İşlər Nazirliyinin hazırkı rəhbəri, amerikapərəst Annalena Burbok kansler Şolzun Çinə səfərinin məhsuldar olduğunu təkzib edib. Aydındır ki, Steinmeier Xi-nin telefon danışığı Vaşinqtonun Pekinlə gərgin münasibətlərinə baxmayaraq Scholz-un Merkelin qeyd etdiyi Çinlə konstruktiv əlaqəni davam etdirmək niyyətində olduğunu təsdiqləyir.

Bununla belə, Ukraynada sülhməramlılığı Çinlə müzakirə etmək Almaniya rəhbərliyinin cəsarətli addımıdır, xüsusən Bayden administrasiyasının Rusiya ilə proksi müharibəsinə dərindən qarışdığı və Ukraynanı "tələb etdiyi müddətcə dəstəkləmək niyyətində olduğu indiki mərhələdə.

Ancaq bir mənfi cəhət də var, son bir neçə ay ərzində Almaniya Ukrayna məsələləri ilə bağlı mövqeyində qəzəb və təhqir ritorikasını gizlədə bilir. O, aydın başa düşür ki, Ukrayna münaqişəsi ərəfəsində onu aldadıblar və bu, onun üçün xüsusilə xoşagəlməzdir, çünki onun Şimali Atlantika Blokuna simpatiyası çox səmimidir.

Almaniyalı nazirlər Amerika neft şirkətlərini baş verən enerji böhranından həyasızcasına nağdlaşdırdıqlarına və ABŞ-da qazı yerli qiymətdən 3-4 dəfə baha sataraq super qazanc əldə etdiklərinə görə tənqid ediblər. Bundan əlavə, Almaniya Bayden administrasiyasının iqlim və təmiz enerjiyə investisiyaları tənzimləyən İnflyasiyanın Azaldılması Aktının Almaniya sənayesinin ABŞ-a qaçmasına səbəb olacağından ehtiyat edir.

Amma ən kritik addım "Şimal axını" qaz kəmərinin dağıdılması oldu. Almaniya yəqin ki, bu terror aktının arxasında hansı qüvvələrin dayandığını yaxşı təsəvvür edir, lakin onların adını belə çəkə bilmir və təhqir və qəzəb hissini boğmağa məcburdur. "Şimal axını"nın ölümü Almaniya-Rusiya münasibətlərinin canlanmasını tamamilə çətinləşdirib. Tarixi ilə fəxr edən hər bir xalq üçün bu, artıq həddən artıq çoxdur: heç kim alverçi olmağı xoşlamır.

Scholz və Steinmeier təcrübəli siyasətçilərdir və nə vaxt səbr etməli, öz mövqelərində dayanmalı və bunu gözləməli olduqlarını yaxşı bilirlər. Nə olursa-olsun, Çin Almaniya iqtisadiyyatının bərpası üçün əsas tərəfdaş olaraq qalır. Almaniya ABŞ-ın Çinlə tərəfdaşlığını pozmasına icazə verə bilməz - əks halda o, onların vassalı olacaq.

Ukrayna münaqişəsinə gəlincə, Almaniya cəbhəyanı dövlətə çevrilib, lakin Qərbin taktika və strategiyasını Vaşinqton müəyyən edir. Almaniya hesab edir ki, Çinin Ukraynada sülhməramlı olmaq üçün unikal imkanları var. Bu ideyanın Pekində də yavaş-yavaş qəbul olunduğuna dair əlamətlər var.

**V.VƏLİYEV**

# İrəvanda Ermənistan-İran qardaşlığını sübut edən növbəti konfrans

## *Regiona yaranan növbəti təhlükə mənbəyi*





**İrəvanda "Əsrlərin tarixi-mədəni bağı Ermənistan-İran dostluğunun təminatçısıdır" adlı konfrans keçirilib. SİA-ya daxil olan məlumata görə, bu barədə "news.am" saytı xəbər verib. Belə ki, İrəvanın "Matenadaran" adlı "qədim erməni əlyazmaları muzeyində" keçirilən konfransda yalnız tarixin saxtalaşdırılması deyil, həm də türkofobiya xarakterli çıxışlar, habelə ərazi iddiaları da yer alıb. Bu amil də sübut edir ki, Ermənistan-İran qardaşlığı bütövlükdə regiona ciddi təhdidlər verməkdədir.**

Əbəs deyil ki, sözügedən tədbirə qatılan İranın Ermənistandakı səfiri Abbas Bədəxşan Zühuri 30 il ərzində erməni vandallarının Qarabağı yağmaladığını və müsəlman azərbaycanlılara qarşı Xocalı soyqırımını törətdiyini görməzdən gələrək, iranlıların və ermənilərin Ermənistanda "tolerantlığın təzahürü" kimi qiymətləndirib və İrəvandakı Göy məscidin önəmini və müsəlmanların dini mərasimlərini keçirmək azadlığını nümayiş etdirə bilməsindən məmnunluğunu ifadə edib. Halbuki, bu məscidin tarixən Azərbaycan xalqına məxsus olduğunu isbatlayan müxtəlif səhih mənbələr mövcuddur. Hətta bu faktı elə erməni alimlərinin özləri də etiraf edirlər.

**Azərbaycan məscidlərinin təhqirlərə məruz qalmasına susan İran rəsmiləri bu gün İrandakı erməni kilsələrinə necə xidmət və təzim etdiklərini də utanmadan etiraf edirlər**

Yuxarıda da qeyd edildiyi kimi, Azərbaycan torpaqlarının erməni işğalı altında qaldığı dövrlərdə müsəlman məscidlərinin donuzxanalara, mal tövlələrinə çevrildiyi bir zamanda ağızlarına su alıb susan dırnaqarası müsəlman İran rəsmiləri bu gün İrandakı erməni kilsələrinə necə xidmət və təzim etdiklərini də utanmadan etiraf edirlər. Görünür, ona görə İrandakı erməni kilsələrinin əhəmiyyətini "nümunəvi" adandıran səfir onun siyasi və mənəvi dəyərinin dərk edilməsinin vacibliyini vurğulayıb. İranlı diplomat habelə iki qardaş xalqın - ermənilərin və farsların qarşılıqlı mədəni əlaqələrin inkişaf etdirilməsinin zəruriliyi barədə də danışıb.

**İran adlandırılan saxtakar rejim idarəçiliyində Azərbaycan dilində təhsilin alınmasına qoyulan qadağalardan tutmuş digər məsələlərə qədər təhdidlər, repressiyalar və s. vəhşiliklər nəinki səngimir, əksinə artmaqda davam edir**

Tədbir çərçivəsində Ermənistanda fars dilinin, İranda isə erməni dilinin öyrənilməsi və hər iki ölkənin ziyalılar arasında əməkdaşlıq məsələlərinə xüsusi diqqət yetirilib ki, bu məsələ də ayrılıqda diqqət çəkir. Çünki İran adlandırılan saxtakar rejim idarəçiliyində Azərbaycan dilində təhsilin alınmasına qoyulan qadağalardan tutmuş digər məsələlərə qədər təhdidlər, repressiyalar və s. vəhşiliklər nəinki səngimir, əksinə artmaqda davam edir. Bütün bunlar isə bir daha Ermənistan-İran cütlüyünün regional cəhətdən nə qədər təhlükə mənbələri oduğunu kifayət qədər nümayiş etdirməkdədir.

***Rövşən RƏSULOV***



# Venesiya komissiyası batan partiyaların "saman çöpü" olacaqmı?

1992-ci ildə AXC hakimiyyəti dövründə qəbul olunan "Siyasi partiyalar haqqında" qanun ortaya 60-a yaxın partiya çıxardı. Bu partiyaların mütləq əksəriyyətinin heç bir ciddi kadr potensialı olmadığından onlardan müxtəlif sahələr üzrə proqramlar gözləmək də mümkün deyildi. Əslinə qalsa qeydiyyatdan keçmək üçün qohum-qardaşı, dost-tanışı səfərbər edib birtəhər tələb olunan sayı düzəldən siyasi partiyalardan və onların liderlərindən elə bir ciddi gözlənti də yox idi. Dövləti idarə etmək, hakimiyyətin müəyyən qollarında yer almaq üçün yaradılan, yaxud yaradılmalı olan partiyaları cəmiyyət təkcə ciddiyə almamaqla kifayətlənmirdi, həm də ələ salır, lağa qoyurdu. KİV-lərdə gah tamadalar, gah aşıqlar partiyalarının yaradıldığı, gah da yaradılan partiyalara "Orta barmaq partiyası", "Şəhadət barmaq partiyası" kimi adlar verildiyi iddiaları yer alırdı.Və bu münasibəti siyasi partiyalar, onların özünəvurğun liderləri özləri qazanmışdılar. Son illər Azərbaycan hakimiyyəti məhz bu münasibəti dəyişməyi, ölkədə güclü siyasi partiyaların meydana gəlməsinə nail olmağı əsas vəzifə kimi qarşıya qoydu. Prezident administrasiyasında "...Siyasi partiyalarla iş şöbəsi" yaradıldı və sözün əsil mənasında iş başladı. Partiya liderləri ilə görüşlər, müzakirələr, birgə səfərlər və onların KİV-də işıqlandırılması onların cəmiyyətdə nüfuzunu artırdı. Siyasi partiyaların dövlət tərəfindən maliyyələşməsi haqqında qərar verildi. Dövlət qeydiyyatından keçmiş siyasi partiyalar yüksək səviyyədə təmir olunmuş qərargahlarla təmin olundular. Güclü partiyaların ortaya çıxması istiqamətində atılan növbəti addım-"Siyasi partiyalar haqqında Qanun" layihəsinin hazırlanması oldu və bu mühüm qanun geniş müzakirələrdən sonra Milli Məclis tərəfindən qəbul edildi.

Yeni qanun iri partiyaların meydana çıxması üçün kiçik siyasi qurumların təmərküzləşməsini nəinki mümkün, həm də məcburi edir. Artıq heç bir ideologiyası olmayan, yaxşı halda dost-tanışın, qohuməqrəbanın "adını yazdırdığı" partiyaların yaşaması, ayaqüstə qalması mümkün deyil. Artıq bəzi liderlərin "kiçik olsun, mənim olsun" fəlsəfəsindən imtina etməkdən başqa yolu qalmayıb. Artıq müəyyən ideologiya ətrafında birləşmədən, ortaya yerli strukturları, icra aparatı, kadr bazası olan güclü partiya çıxarmadan Azərbaycanın siyasi həyatında qalmaq və fəaliyyət göstərmək mümkün olmayacaq.Çox təəssüf ki, mövcud reallıqları nəzərə alıb partiyalarını yeni qanunun tələblərinə uyğunlaşdırmağa çalışmaq əvəzinə bəzi siyasilər "müqavimət cəbhəsi" yaratmaq yolunu tutdular. Bu məqamda köməyinə ümid edilən "saman çöpü" Avropa Şurasının Venesiya Komissiyası oldu. "Müqavimət hərəkatı"nda ReAL partiyasının sədri İlqar Məmmədovun öndə yer alması böyük əksəriyyət üçün gözlənilməz oldu.Çünki bir zamanların "barışmaz müxalifətçisi", "Milli Şura"nın bəzi liderlərinin iddiasına görə Avropa qurumlarının, hətta "maaşa bağlayaraq" böyük ümidlər bəslədiyi ReAl lideri həbsdən çıxdıqdan sonra prezident administrasiyasında bir neçə görüş keçirmiş və həmin görüşlər zamanı "əsaslı arqumentlərlə" tutduğu yolun yanlış olduğu ona izah olunmuşdu. Görünür administrasiyadakı həmsöhbətlərin siyasi səviyyəsi o qədər yüksək, onların təqdim etdikləri "arqumentlər" o qədər inandırıcı olmuşdu ki, söhbətlərdən dərhal sonra İlqar Məmmədov radikallıqdan tamamilə imtina etmək qərarına gəlmiş və bəzi "barışmazçılar"ın iddiasına görə "avtobus müxalifəti"nə çevrilmişdi. İlqar Məmmədovun növbəti dəfə mövqe dəyişdirməsinin və bu qədər radikallıq nümayiş etdirməsinin kökündə nə dayanır? Bir az əvvəl dedik. "Siyasi partiyalar haqqında"yeni qanun kiçik, azsaylı partiyalar üçün ciddi problemlər yaradır və bu qanunun tələblərinə cavab verməк onların imkanları xaricindədir.

Hərəkat kimi fəaliyyət göstərərkən xeyli yüksək potensiallı ziyalını öz ətrafında birləşdirməyə nail olan ReAl partiyaya çevrilərkən onların çoxunu yolda itirdi və üzvlərin sayına görə kiçik, kadr potensialı baxımından ortabab partiyaya çevrildi. Yeni qanunun tələblərini yerinə yetirmək partiyaların böyük əksəriyyətinin, o cümlədən ReAl-ın imkanları xaricində olduğu hamıya "gün kimi" aydındır.Partiya liderinin səfərlər və görüşlər zamanı sərgilədiyi "sadəlik", özünə "reallıqdan" xeyli uzaq qiymət verməsi və "təvazökar" davranışı ReAl-ın digər partiyalarla birləşməsini mümkünsüz edir. Partiya üzvlərinin sayını artıraraq tələb olunan saya, hətta onun yarısına belə çatmaq da ReAl-ın imkanları xaricindədir. Bu vəziyyətdə yeganə ümid qalır "saman çöpünə", yəni, Venesiya komissiyasına. Onun da müxtəlif dövlətlərə verdiyi tövsiyələr qanun hazırlanarkən diqqətlə öyrənilib və bu tövsiyələr müxalifətin, o cümlədən, İlqar Məmmədovun mübahisələndirməyə çalışdığı maddələrdə nəzərə alınıb.

Bu halda Venesiya komissiyasına müraciət etməyin vaxt itkisindən başqa bir şey olmadığı aydın deyilmi? Təəssüf ki, belə deyil. Təəssüf ki, konstitusiya hüququ üzrə tövsiyyələr vermək üçün yaradılan Venesiya komissiyası bir çox hallarda siyasi amilləri ön plana çəkir. Komissiyanın eyni qanun barədə müxtəlif ölkələrə müxtəlif tövsiyyələr verməsinin kökündə də bu məsələ dayanır. Venesiya komissiyasının tövsiyyələri əsasında hazırlanan qanunun tələblərinə əməl edə bilməyəcəklərindən çəkinən müxalifəti ümidləndirən də budur.Onlar komissiyanın heç bir "vicdan əzabı" çəkmədən öz tövsiyələrindən imtina edəcəyinə və "müxalifətin sifarişinə" uyğun "rəy" verəcəyinə əmindirlər. Çox güman ki, belə də olacaq və İlqar Məmmədovun həsrətlə gözlədiyi "şanlı rəy" yaxın zamanlarda Azərbaycana daxil olacaq. Ancaq Venesiya komissiyasının göndərəcəyi tövsiyə xarakterli "rəy" suda boğulanın son ümid yeri-saman çöpündən başqa bir şey olmayacaq. İndiyə qədər saman çöpünün kimisə boğulmaqdan xilas etdiyinə şahid olan varmı?

TƏHLİL

***Abutalıb Səmədov***
***Azərbaycan Naminə Alyans Partiyasının sədri***

ANALİTİK + ÖZƏL

# Cinayətkar rejimin çıxış yolu qalmadı - "kütləvi mitinq" nəticəsizliyi

**Beləliklə, dekabrın 25-də Rusiya sülhməramlıları kontingentinin müvəqqəti yerləşdikləri ərazilərdə, daha dəqiq desək, Xankəndidə cinayətkar-separatçı rejimin yerli erməni sakinlərinə qarşı tətbiq etdikləri təhrikləri ilə qondarma mitinq keçirildi. Təkcə belə bir mitinqin keçirilməsi bir daha sübut edir ki, quldur çete rəhbərliyi Ermənistandakı və xarici ölkələrdəki havadarlarının dəstəyi ilə Azərbaycanın qanuni tələblərinə məhəl qoymaq fikrində deyillər və mövcud vəziyyətin gərginləşməsi üçün əllərində olan-qalan bütün rıçaqlarından istifadə etməyə çalışırlar. Təbii ki, düzüb-qoşduqları böyük yalanları və bu vasitə ilə dünya birliyi qarşısında süni ajiotaj yaratmaq cəhdləri ilə....**

Vardanyan, Arutyunyan, Balasanyan, Babayan və başqaları dərk etməyə məhkumdurlar ki, heç bir sadə Qarabağ ermənisi onların "bahalı dərilərinə" görə öz canlarını güdaza vermək fikrində deyil!




### "Mapcheking"in hesablamasına görə, aksiyada 70 min deyil,




### 17 min 581 nəfər insanın iştirak etdiyi göstərilir!

Və bu gün "120 min artsax xalqı" deyərək hay-haray qaldıran qondarma mitinqlərində "70 min" insanın iştirak etdiyini iddia edən separatçılar bu vasitə ilə növbəti yalanlarını üzə çıxarmış olublar. S?A-nın əldə etdiyi məlumata görə, bu, heç də belə deyil, yəni reallıq tamamilə başqa rəqəmləri göstərir.

Misal üçün, "Faktyoxla Lab" araşdırma mərkəzinin hazırladığı sxem əsasında biz tamamilə başqa mənzərənin şahidi oluruq. Belə ki, adıçəkilən araşdırma mərkəzinin "Mapcheking" əlavəsindəki hesablamalara görə, aksiyanın kieçirildiyi meydan və küçənin çəkilən kadrlar vasitəsi ilə konturları hesablanıb. Foto və video əsasında müəyyən edilib ki, meydanın sağ və sol künclərindəki sıxlıq çox aşağıdır - bir kv.km-ə 0,7 adam. O cümlədən, 220 metr uzunluğu və 7 m eni olan qondarma "respublikanın" əski parçası, habelə tribuna qarşısındakı ərazi ilə yanaşı, nəzərə alınsa ki, hər kv. metrə orta hesabla iki adam düşür, bu zaman "Mapcheking"in hesablamasına görə, aksiyada 17 581 nəfər insanın iştirak etdiyini göstərilir!



Nəticədə dekabrın 25-də separatçıların Azərbaycanın Qarabağ iqtisadi rayonuna daxil olan Xankəndi şəhərində keçirdikləri mitinqlərində onların iddia etdikləri kimi 70 min deyil, 17 min 581 insanın iştirak etdikləri bildirilir. Fakt budur ki, erməni informasiya mənbələri rəqəmləri həddindən artıq şişirdiblər.

### Aksiyanın qiyməti: 30-40 dollar, pulsuz internet və yanacaq, daşınmaq üçün təhkim edilmiş avtobus parkı və təhdidlər...

Keçək növbəti fakta - əldə edilən digər operativ məlumatlara görə, aksiyanın "kütləvi" görünməsi üçün onu çəkən operatorlara xüsusilə tapşırılıb ki, əsasən kütlənin sıx olduğu yerlər nəzərə alınsın. Bundan əlavə, separatçı qurum rəhbərliyi "administrasiyalarının" nəzarətində olan bütün imkanlardan maksimum yararlanmağa çalışıblar. Məsələn, müxtəlif ərazilərdən gətirilən adamlara 30-40 dollar pul təklif edilib, ətraf kəndlərdən insanları daşımaq üçün avtobus parkı tamamilə aksiyaya təhkim edilib. O cümlədən, öz nəqliyyat vasitələrində mitinqə cəlb edilən adamlara havayı yanacaq verilib. Bütün bunlar üçün bilavasitə Ruben Vardanyanın şəxsi fondu necə deyərlər, öz kisəsinin ağzını açıb. Üstəlik, aksiyaya daşınan adamların onu öz telefonlarına çəkib-sosial şəbəkələrdə yaymaları, paylaşmaları üçün pulsuz internet verilib.






### Xankəndidəki "mitinqdə" qanunsuz silahlı birləşmələrin terrorçuları hərbi uniformalarda görünüblər!

Lakin daha bir məqam budur ki, aksiyada qanunsuz erməni hərbi birləşmələrinin terrorçuları da iştirak ediblər.

Ardı Səh. 13

# Cinayətkar rejimin çıxış yolu qalmadı - “kütləvi mitinq” nəticəsizliyi




Əvvəli Səh. 12

Onlara öz ailələri ilə mitinqə gəlmələri üçün mülki geyimlər verilib. Ancaq kadrlardan da göründüyü kimi, onların heç də hamısı mülki geyimlə manipulyasiya edə bilməyiblər. Bəziləri kadrlara məhz hərbi uniformalarda görünüblər.

”Dövlət strukturları” işçilərinə, o cümlədən, ”səhiyyə və təhsil müəssisələrinə”, eləcə də ”polislərə” də xüsusi olaraq tapşırılıb ki, onlar aksiyaya öz ailələri ilə gəlsinlər, əks halda onlar dərhal öz işlərindən uzaqlaşdırılacaqlar. Habelə ”tələbələrə” də əvvəlcədən xəbərdarlıq edilib ki, mitinqdə iştirak etməsələr problemlərlə qarşılaşmalı olacaqlar. Qeyd edilən bütün cəhdlərə baxmayaraq ”kütləvi aksiya” cəmi 1,5 saata başa çatdı və bununla sübut olundu ki, yaradılan süni hay-küy sadəcə boş sabun köpüyüdür.

### Ruben Vardanyanın ”inteqrasiya”, ”getmək” və ”mübarizə aparmaq” seçiminə real baxış-ya DTX-nın zirzəmisi, ya da Yerablur məzarlığı!

İndi isə keçək teatralizə olunmuş ”mitinqin” təşkil edilməsində əsas təşəbbüskarlıq edən baş quldurların iddialarına. Cinayətkar və aferist Vardanyan deyib ki, separatçıların üç yolu var: ya Azərbaycana inteqrasiya etmək, ya getmək, ya da mübarizə aparmaq. O, bu mənada özünü ”barışmaz lider” kimi ”tərənnüm” edərək bildirib ki, artıq sentyabrın 2-də öz qərarını qəbul edib və Azərbaycanın tələblərinə tabe olmayacaq. Məhz bu axmaq iddianın onun və digər separatçıların başlarına hansı oyunları gətirəcəyini qoyuruq bir kənara və keçirik həmin o üç variantların təhlilinə:

”İnteqrasiya”. Mövcud bənd nə Vardanyana, nə də ki, bu günün özündə orada qalan silahlı terrorçulara heç bir halda aid deyil. Bu rəqəm isə haradasa 15-20 min qanunsuz silahlı deməkdir. Vardanyanın inteqrasiya olunacağı yeganə yer ya DTX-nın zirzəmisi, ya da Yerablur məzarlığıdır!




”Getmək”. Əslində, burada da şəxsən onun özünə aid heç nə yoxdur. Vardanyan bundan sonra Rusiyaya dönə bilməyəcək. Paşinyana isə İrəvanda Moskvanın Qarabağa desant kimi göndərdiyi Vardanyan və onun 15-20 minlik silahlı çetesi ümumiyyətlə lazım deyil. Yəni Vardanyan İrəvana getsə bu Paşinyan üçün ciddi manеə olacaq. Təkcə illər öncə Ermənistan parlamentinin Kremlin bu ölkədəki nökərləri tərəfindən güllə-boran edilməsini xatırlasaq kifayət edər. Yəni həmin hal bu dəfə Vardanyanın əli ilə təkrarlana bilər. Yaxud belə bir sual edək: bu gün kim zəmanət verə bilər ki, Vardanyanın adamları Paşinyana və onun iqtidarına qarşı terror aksiyası keçirə bilməz? Və ya Vardanyan İrəvanda görünərsə (əlbəttə ki, ekoaksiyaçılarımızın yerləşdikləri ərazidən keçməyi bacararsa, ya da xüsusi xidmət orqanlarımızın əlinə keçməzsə) o özünün Qarabağ klanı ilə əlnə düşən terror imkanından əsla imtina etməyəcək, çünki itirəcəyi də heç nə qalmayacaq!

Eləcə də, əgər bu faktoru biz dərk ediriksə, söz yox ki, Paşinyan da dərk edir. Lakin yuxarıda da qeyd etdiyimiz kimi, Vardanyanın Ermənistana sağsalamat getməsi qeyri-mümkün görünür. Onu Qarabağda çox yəqin ki, mövcud olan Paşinyanın adamları da o dünyaya göndərə bilərlər. Hər şey ola bilər və fakt budur ki, Vardanyan sözün əsl mənasında tələdədir!

”Mübarizə”. Regionda yeni askalasiya baş verəcəyi halda, Qarabağdakı silahlı bandalara nə Ermənistandan, nə də Moskvadan heç bir dəstək, kömək, yardım olmayacaq. Paşinyan bu hala sadəcə sevinə bilər, çünki Qarabağ klanının nəfəsi kəsiləcək və onun bundan sonra həmin klan tərəfindən siyasi rəqibləri qalmayacaq. Çünki Qarabağ bütövlükdə Azərbaycanın nəzarəti altında qalacaq.

Qaldı ki, Vardanyanın hay-haraylı söz və bəyanatlarına - bütün bunlar sadəcə və sadəcə fiksiyalardır. Bu fiksiyaları elə Vardanyanın özü də anlamağa başlayıb. Əbəs deyil ki, o hər dəfə İrəvandan heç bir dəstək almadığını bildirir. Məsələn, o deyib: ”... Ermənistan mənim gözlədiyim kimi reaksiya göstərmir. Ermənistan təşkilatları bəyanatlarla çıxış etmədilər və mən bundan təəccüb etdim...”

Beləliklə, gördüyümüz kimi, Kreml desantının, ya da missionerinin variantları qalmayıb. Ona görə də o, yeganə çıxış yolunu Qarabağdakı 15-20 minlik separatçı silahlıları çıxmaq şərti inteqrasiya olunmaq istəyən sadə ermənilər vasitəsi ilə axtarır - yuxarıda qeyd edilən qondarma mitinqləri sayəsində. Amma unudur ki, Azərbaycanın səbri tükənməzlikdən çoxdan çıxıb və artıq tükənib! Vardanyan, Arutyunyan, Balasanyan, Babayan və başqaları dərk etməyə məhkumdurlar ki, heç bir sadə Qarabağ ermənisi onların ”bahalı dərilərinə” görə öz canlarını güdaza vermək fikrində deyil!

***Rövşən RƏSULOV***




## Ruslar 3 əsgər itirdiklərini deyirlər, təyyarələrə isə zərər dəyməyib?

Engels aerodromu bir ayda ikinci dəfə Ukrayna pilotsuz təyyarəsinin hücumuna məruz qalıb

**Ukraynanın nəzarətində olan ən yaxın ərazidən təxminən 700 kilometr aralıda olan Engels aerodromu dekabrın 5-də Ukrayna pilotsuz uçuş aparatlarının hücumuna məruz qalmışdı. Qeyd edək ki, Engelsdəki hava bazasında ”Tu-160” və ”Tu-95MS” strateji bombardmançı təyyarələr yerləşir.(...qeyd edim ki, mən sovetlər dövründə hərbi xidmətimi rabitəçi kimi məhz Engelsdəki hava bazasında yerinə yetirmişəm-A.B.)**

Onu da qeyd edək ki, Rusiya təyyarələri məhz bu aerodromdan Ukraynadakı hədəflərə hücum edir. ”Tu-95MS” və ”Tu-160” nüvə silahı daşıyıcılarıdır və Rusiyanın nüvə qarşısının alınması qüvvələrinin bir hissəsidir.

Yeri gəlmişkən, qeyd edim ki, Ukraynanın artıq ikinci dəfə bombaladığı Engels aerodromu, deyildiyi kimi, Ukrayna ərazisində 700 kilometr məsafədə yerləşir. Xatırladım ki, Ukrayna ilə sərhədində yerləşən və tez-tez ukraynalıların hədəfinə tuş gələn Belqorodla Moskva arasındakı məsafə 700 kilometrdən də az olmalıdır. Nə isə bizlik deyil.

Beləliklə, Rusiya Müdafiə Nazirliyi dünən axşam saatlarında strateji bombardmançıların yerləşdiyi Saratov vilayətinin Engels şəhərindəki hərbi aerodromda partlayışlar baş verməsi barədə məlumatı təsdiqləyib. Özü də, dediyimiz kimi, ikinci dəfə. Bu arada ruslar Ukraynaya məxsus pilotsuz təyyarəni vurduqlarını iddia edirlər. Bununla belə 3 rus əsgər itirdiklərini də etiraf edirlər. Təyyarələrin isə guya zədələnmədiyini deyirlər.

Onu da qeyd edək ki, Saratov vilayətinin qubernatoru Roman Busargin öz teleqram kanalında, hərbi obyektdə baş verən insidentlə bağlı məlumatın hüquq-mühafizə orqanları tərəfindən yoxlanıldığını yazıb. O, iddia edir ki, şəhərin yaşayış massivlərində heç bir fövqəladə hadisə baş verməyib, yəni mülki infrastruktura ziyan dəyməyib.

Maraqlıdır ki, Ukrayna tərəfi baş verənləri rəsmi olaraq nə təsdiq və ya təkzib etməyib, lakin... Amerika mediası Ukrayna rəsmilərinə istinadən əminliklə, məhz bunu Ukrayna hərbçilərinin modernləşdirilmiş sovet dronlarının köməyi ilə endirdiyi zərbələr olduğunu bildiriblər.

***Ağasəf Babayev***

# “Rus sülhməramlıları Xankəndi yolundan çəkilə bilər”

**“Rusiya sülhməramlılarının Xankəndi yolundan çəkilməsi ehtimal ki, tərəflər arasında yüksək instansiyada əldə edilmiş razılıqların nəticəsidir, digər tərəfdən vəziyyətin eskalasiyası Rusiyanın da maraqlarına cavab vermir.**

Bununla belə Qarabağda məlum yataqlar ətrafında monitorinqin aparılması Rusiya sülhməramlılarının bu proseslərə nəzarəti altında mümkündür.” Bunu SİA-ya açıqlamasında politoloq Elşən Manafov deyib.

Politoloqun sözlərinə görə, hazırda Xankəndidə Vardanyanın təşəbbüsü və maliyyə dəstəyi ilə keçirilən mitinqlər erməni tərəfinin təxribata getmək üçün müxtəlif vasitələrdən imtina etməyəcəyini göstərir: ”Hadisələrin arxasında Qarabağ separatçı rejimin, buranın dövlət naziri postuna yiyələnmiş Vardanyanın fərqli korporativ maraqlarının olmasına baxmayaraq Qarabağın yaxın perspektivdə Azərbaycanın yurisdiksiyasına keçməməsi üçün onların, habelə onlara himayədarlıq edən bəlli tərəflərin maraqları birdir”.



***Gülyana***

# Restoran və otellərdə yeni il ilə bağlı qiymətlər necədir?

**Yeni il bayramı üçün qeyri-iş günləri bir çox insanların dincəlməsinə və qış turizmini uyğun ərazilərdə vaxt keçirməsinə şərait yaradacaq. Hər il olduğu kimi, bu il də Azərbaycanda qış yarmarkası keçirilir. Həm yerli, həm də xarici turistlər yarmarkaya baş çəkirlər. Bu da ölkəmizə turist axının inkişafında müəyyən rol oynayır. Lakin çoxlarını bir sual narahat edir - otel və restoran qiymətləri yaxşı tətil keçirməyə imkan verəcəkmi?**



SİA mövzu ilə bağlı araşdırma aparıb. Otellərdə və restoranlardakı qiymətlərə gəlincə Quba Şahdağ otelində dekabrın 31-də səhər yeməyi ilə istirahət bir nəfər üçün 60-75 manat arası, iki nəfər üçün 80-95 manatdır. Amma vətəndaşlar yeni il şousunda iştirak etmək üçün əlavə ödəniş etməli olacaqlar. Bu qiymətlərə nahar da daxildir.

Qusardakı "Şahdağ" turizm mərkəzindən bildirilib ki, dekabrın 30-dan yanvarın 1-dək "Şahdağ Hotel & Spa" və "Zirvə" otellərində otaqların sayı məhdud olur. Qiymətlər otaqlardan panoramik mənzərədən asılı olaraq dəyişir. Quba Palace Hotel-də Yeni il gecəsi də daxil olmaqla iki gün ərzində dağ mənzərəli deluxe nömrə 1500 manatdan 1650 manatadək dəyişir.

### Kənddə kotteclər və fərdi evlər

Bayram günlərində turizm zonalarında kotteclərin kirayəsi üçün qiymətlər nəzərəçarpacaq dərəcədə artıb. Beləliklə orta hesabla 200-400 manata bağ evləri kirayə vermək olar.

Kənd evlərində bir gecəlik yaşayış minimumu 80 manatdır. Qusarda bu qiymət 200-560 manat arası dəyişir. Restoranların əksəriyyəti yeni illə bağlı olaraq özəl yeni il gecəsi şənliyi tərtib edir. Bu restoranlarda qiymətlər müxtəlif olsa da, yerlərin bir hissəsi indidən bron edilib. Yeni ilə bir neçə gün qalmış bəzi restoranlarda yerlər indidən məhdudlaşır.

"Nar Şərab" restoranında qiymətlər adam sayına və zala görə dəyişir. Belə ki, restoranın "Kristal" zalında 1 nəfər üçün qiymət 200 manat, "Golden" zalda 1 nəfər üçün qiymət 120 manatdır. Öncədən rezervasiya isə minimum 4 nəfər üçün qəbul olunur.

"Monte Napeleone Premium"da da qiymətlər zala görə dəyişir. Banket otaqlarında depozit qiyməti adam sayına görə hesablanır. Adambaşına depozit 70 manatdır. Menyu da bu depozitə daxildir. Zallardakı qiymətlər isə 150-600 manat arasındadır. "Atlantis" restoranında Yeni il üçün depozit qiymətləri adambaşına 70 manatdan başlayır 150 manata qədər artır. Bu qiymətlərə menyu da daxildir.

"Kaddeh Baku"da səhnə önü masalar 1 nəfər üçün 300 manat, kənar masalar 1 nəfər üçün 250 manat nəzərdə tutulub. Rezerv edənlərin çox olması səbəbindən restoranda Yeni il axşamı üçün yerlər məhdud saydadır. Bir sözlə, insanların bayram günlərində dincəlmək imkanı olsa da, çoxları üçün turizm bölgələrindəki və restoranlardakı qiymətlər bundan istifadə etməyə imkan verməyəcək.

Turizm üzrə ekspert Cəbrayıl Dövlətzadə: "Qış mövsümündə xüsusilə dekabr ayının sonu, yanvar ayın başlanğıcında canlanma müşahidə olunur. Bu canlanma həm bölgələrdəki otellərdə, həm də mərkəzdəki otellərdə özünü göstərir. Mərkəzi otellərdə Rusiya, Müstəqil Dövlətlər Birliyindən gələn qonaqların sayı hər zamankı kimi artır.

Təəssüflər olsun ki, Rusiya-Ukrayna arasında gedən müharibə Rusiya bazarından gələn müştərilərin sayında müəyyən azalmalar olduğunu göstərir. Ancaq bu arada Qətərdə keçən futbol üzrə dünya çempionu qurtardığından ərəb bazarından da müştərilərin artımı müşahidə olunmaqdadır. Ərəblər də Şahdağ və Tufandağ Qəbələ-Qusar istiqamətində otellərə daha çox üz tuturlar. Xüsusən də bu il bölgələrdə təbii qarın olması turistlərin ölkədə artmasına gətirib çıxaracaq, bu da sevindirici bir haldır. Ümumiyyətlə həm mərkəzdə, həm də bölgələrdə turistlərin xeyli artacağı proqnozlaşdırılıb. Otellər və restoranlardə müştəri çoxaldıqca təbii ki, qiymətlərdə də biraz artım olunur. Amma ölkəmizdə quru sərhədlər bağlıdır. Əgər quru sərhədlər açıq olsaydı bu ərəfələrdə çox ciddi bir canlanmaya şahidlik edərdik".

*Havar Şəfiyeva*








## Prezidentin qrup yoldaşı:

# “İlham Əliyev heç vaxt atasının statusundan istifadə etməyib...”

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi” istiqaməti çərçivəsində hazırlanıb.*

**Vladimir Vladimiroviç Ştoll: MDBMİ-də oxuduğu illərdə İlham Əliyev heç vaxt Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1-ci katibinin oğlu olması ilə öyünməyib**





Dekabrın 24-də Azərbaycan Prezidenti İlham Əliyev ad gününü qeyd etdi. Dövlətimizin başçısının 61 yaşı tamam oldu. Bununla bağlı Caliber.Az Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun məzunu, siyasi elmlər doktoru, professor Vladimir Vladimiroviç Ştolla əlaqə saxlayıb, o, sinif yoldaşını əlamətdar gün münasibətilə təbrik edib, xatirələrini bölüşüb. Müsahibəni oxucularımıza təqdim edirik.

Vladimir Vladimiroviç Ştoll ilk növbədə Azərbaycan Prezidentinə salamlarını və təbrkini çatdırıb.

- Hörmətli İlham Heydəroviç! İcazə verin, sizi ad gününüz, növbəti bayramınız münasibətilə təbrik edim. İlk növbədə, sizə, həyat yoldaşınıza, övladlarınıza və nəvələrinizə möhkəm cansağlığı, bütün işlərinizdə və işlərinizdə uğurlar arzulayıram. Bu il MDBMİ-ni birlikdə bitirməyimizin 40 ili tamam olur. Biz hər il hazırda Moskvada olan sinif yoldaşlarımızla bir araya gəlib birlikdə yaşadığımız illəri, gənclik illərimizi xatırlayırıq. Təbii ki, biz İlham Əliyevi həmişə xatırlayırıq, baxmayaraq ki, o, bəlli səbəblərdən bizim bayramlarımızın çoxunda iştirak etmir. 2013-cü ildə İlham Əliyevin təşəbbüsü ilə Bakıda keçirilən MDBMİ Məzunlarının Birinci Ümumdünya Forumunu xüsusi hərarətlə xatırlayırıq. Gələn il bu tədbirin 10 yaşı tamam olacaq - hər il dünyanın müxtəlif ölkələrində MDBMİ məzunları bir araya gəlir, xatirələrini və təəssüratlarını bölüşürlər. Bu təşəbbüsün başlanğıcında isə İlham Əliyev dayanır.

Növbəti il sizin üçün əlamətdar olacaq, İlham - haqlı olaraq böyük dövlət xadimi adlandırıla bilən atanızı əvəz edərək ilk dəfə Azərbaycanın prezidenti seçilməyinizdən 20 il keçir. Sizə təkcə insani deyil, həm də siyasi yetkinliyə qədəm qoyduğunuz bir vaxtda iki ölkəmizin - Azərbaycanın və Rusiyanın rifahı naminə dövlət fəaliyyətinizdə ən böyük və ən mühüm nailiyyətlər arzulamaq istərdim. Bir daha sizə cansağlığı və bütün işlərinizdə uğurlar arzulayıram, - deyə V.Ştoll bildirib.




МОСКОВСКИЙ ГОСУДАРСТВЕННЫЙ ИНСТИТУТ
МЕЖДУНАРОДНЫХ ОТНОШЕНИЙ МИД СССР
СТУДЕНЧЕСКИЙ БИЛЕТ № 77002
Фамилия Алиев
Имя Ильгам
Отчество Гейдар оглы
Время поступления 25.VIII.77
Факультет МО
Дата выдачи билета 31.VIII.77






Vladimir Vladimiroviç vurğulayıb ki, MDBMİ-də oxuduğu illərdə İlham Əliyev heç vaxt Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1-ci katibinin oğlu olması ilə öyünməyib.

- İlham Heydəroviçdən 5 yaş böyük olmağıma baxmayaraq, MDBMİ-də oxuduğumuz illərdə bu yaş fərqi hiss olunmurdu. Ümumiyyətlə, bizim institutda kifayət qədər böyük yaş həddi var idi. İlham Əliyev yəqin ki, kursun ən gənci idi. 1977-ci ildə instituta daxil olduq, onun əslində 16 yaşı var idi, mən isə artıq hərbi xidmətdən keçmişdim. Amma məndən bir neçə yaş böyük oğlanlar var idi. Yəni müxtəlif yaşlar olub. Ancaq qeyd etmək lazımdır ki, yaşa, sosial vəziyyətə, milliyyətə baxmayaraq, hamımız gündəlik həyatda və ünsiyyətdə çox da fərqlənməyən sovet oğlanlarının bir mehriban ailəsi idik. Valideynlərin statusu məsələsi indiyə qədər heç kim tərəfindən gündəmə gətirilməyib”,- deyə həmsöhbətimiz bildirib. O, sonuncu dəfə Azərbaycana 2017-ci ilin yayında səfər etdiyini də xatırladıb.

”Naftalandakı kurortda dincəldim, orada müalicəvi vannalar qəbul etdim”, - deyə V.Ştoll yekunlaşdırıb.

***Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
27 dekabr
2022-ci il

# Sevgilisi Ronaldoya 600 minlik avtomobil hədiyyə etdi



Kriştianu Ronaldonun sevgilisi Corcina Rodrigez ulduz futbolçuya avtomobil hədiyyə edib. SİA xarici mətbuata istinadən xəbər verir ki, o, bununla bağlı görüntüləri "İnstaqram" hesabında paylaşıb. Corcina Ronaldoya Yeni il bayramı münasibəti ilə "Rolls Royce" alıb. Bu avtomobilin qiyməti isə 370 min dollardır (629 min manat). Ronaldo da "İnstaqram" hesabında Corcinaya təşəkkür edərək bu sözləri yazıb: "Təşəkkürlər, sevgilim"

# İrandan ölkəmizə qanunsuz keçdi, külli miqdarda qızılla yaxalandı



***Yardımlı rayonunun Avaş kəndi yaxınlığında yerləşən sərhəd zastavasının xidməti ərazisində sərhəd naryadının sayıqlığı nəticəsində 1 (bir) nəfər naməlum şəxsin dövlət sərhədini pozaraq Azərbaycan Respublikası istiqamətinə doğru hərəkət etməsi sərhəd naryadı tərəfindən müşahidə edilib.***

Dövlət Sərhəd Xidmətindən Trend-ə verilən məlumata görə, həyata keçirilmiş sərhəd axtarışı və əməliyyat tədbirləri nəticəsində sərhəd pozucusu təqib olunaraq saxlanılıb. Saxlanılan şəxsin Yardımlı rayonunun Avaş kənd sakini 1989-cu il təvəllüdlü Babayev Taryel Səfər oğlu olması müəyyənləşdirilib.

Sərhəd pozucusunun üzərinə baxış keçirilərkən 2 kiloqram 300 qram qızıla bənzər zinət əşyaları aşkar olunaraq götürülüb. Fakt üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilir.



# İş insanın ikinci evidir?

ARAŞDIRMA

**Uzun bir səyahətdən döndükdən sonra, hər nə qədər gözəl yerləri gəzsəniz belə evinizə girdiyiniz an "Ev kimisi yoxdur" deyirsiniz. Çünki insan heç bir yerdə öz evindəki kimi rahat ola bilməz. Məsələn, evdə duş qəbul edirik, istədiyimiz zaman yemək yeyirik, yorulduqda uzanıb dincəlirik, yuxumuz gəldikdə yatırıq, istədiyimiz tonda danışaraq deyib-gülürük, istədiyimiz qədər telefonda vaxt keçirə bilirik, istədiyimiz geyimdə oluruq və s. Lakin iş mühitində bunları etmək olmur, olmaz. Bəs, o zaman niyə "İş insanın ikinci evidir" deyirlər? Axı, biz işdə evimizdə etdiklərimizi edə bilmirik. Bu halda iş insanın necə ikinci evi ola bilər?**

SİA mövzu ilə bağlı araşdırma aparıb. Əslində işin insanın ikinci evi olması şəxsin çalışdığı iş yerindən və mühitdən asılıdır. Belə ki, ciddi dövlət qurumlarında və böyük şirkətlərdə işdə çox ciddi rejim olur. Məsələn, əksər belə müəssisələrdə işə gec qalmaq səbəbindən işçinin maaşından müəyyən məbləğ kəsilir, evə tez getmək, iş saatları daxilində yemək yemək, telefon istifadə etmək qadağan edilir. Hətta elə müəssisələr var ki, orada ayağa qalxıb otaqdan çıxmaq belə problemdir. Bir sözlə, bu müəssisələrdə maaş yüksək olsa da, iç rejimi çətindir.

Bununla yanaşı ciddi iş rejimi olan kiçik müəssisələrin sayı da az deyil. Yəni, sadaladığımız qadağalar burada da ola bilər.

Araşdırmalar göstərir ki, işin insanın ikinci evi olmamasına şərait yaradan digər bir səbəb isə mühitdir. Əksər müəssisələrdə işə yeni gələnlərə qəribə münasibət bəslənilir. Daha çox yaşca böyük təbəqə yeni gələnləri əzməyə, onları sual atəşinə tutub bir səhv tutmağa və gözdən salmağa çalışır. Belə halda da iş insanın ikinci evi ola bilməz. Çünki evdə heç kim sənin yoluna daş qoymur.





Bununla yanaşı yeni iş yerində insana xoş münasibət bəsləyən, ona evində kimi hiss etdirən, ona müsbət təcrübələr qazandıran mühit də az deyil. Belə iş yerindən ayrılmaq da çox çətin olur. Çünki ailə kimi hiss etdirən insanlar yaddaşlarda daim xoş xatirələrlə qalır. Həmçinin, gözəl bir iş guşəsi də insanı evində kimi hiss etdirə bilər.

İdeal iş mühiti üçün 5 məsləhət:

- Rahatlıq məsələləri

İnsanın işləyərkən özünü mümkün qədər rahat hiss etməsi təkcə məhsuldarlıq deyil, həm də sağlamlıq baxımından önəmli məsələdir.

- Çalışdığımız otaq kifayət qədər aydınlıq olmalıdır
- Səliqəli iş masası və təmiz iş yeri olmalıdır.
- Diqqəti yayındıran şeylər olmamalıdır.
- Ətraf mühit təravətli olmalıdır.

İşəgötürənlər unutmamalıdırlar ki, işçilər şirkətin ən vacib sərvətidir və onlara mümkün qədər sərmayə qoymalıdırlar. İşçilərə mümkün qədər öz istəklərini verməyə çalışaraq, bu sərmayəni asanlıqla həyata keçirə və peşəkar inkişaf üçün imkanlar yarada bilərlər. Bu yolla şirkət üçün iş həcminin və qazancının artmasına nail olmaq mümkündür. Araşdırmalar və sorğular göstərir ki, insanlar özlərini rahat və xoşbəxt hiss etdikləri iş mühitlərində daha məhsuldar və daha uğurlu olurlar.

İş mühiti necə olmalıdır sualının cavabı insanların peşələrinə, adlarına və cinsinə görə dəyişir. İnsanlar işdəki dostluğun işlərinə təsir edəcəyini bildirərkən, bəziləri dostları işlərində faydalı bir amil kimi görmürlər. Araşdırmanın nəticələrində bu, kişi işçilərin iş mühitində dostluğa əhəmiyyət vermədiyini, qadın işçilərin iş mühitində yaxşı həmkarlara ehtiyacı olduğunu göstərir.

Anketlər nəticəsində əldə edilən məlumatlarda iş mühitinin personala müsbət təsir edəcək şəkildə təşkil edilməsi və geniş olması zərurəti də yer alır. Soyuq və şəraitsiz mühitdə işləmək işə mənfi təsir edir və motivasiyanı azaldır.

Əgər iş mühitində kifayət qədər istilik, işıq və ya rahatlıq yoxdursa, personal tərəfindən mənfi şərhlər edilirsə, müvafiq mühitdən uğur gözləmək mənasız olacaq. İş mühitinin temperaturu işçilərə uyğun olmalı, eyni şəkildə iş yerində işıqlandırma seçimi düzgün aparılmalı və işıqlandırma məsələsinə diqqət yetirilməlidir. Bununla yanaşı, iş yerindəki səs-küy çirklənməsi və narahatedici səslər də personala mənfi təsir göstərə bilər.

İş yeri necə olmalıdır sualının cavabı üçün ən əhəmiyyətli olması lazım olan başqa bir məqam da işçilərin yerləşdiyi iş yerinin sağlamlığa uyğun olmasıdır. Havalandırma, təmiz su və qida iş mühitinin sağlamlıq üçün əlverişli olmasını təmin edəcəkdir. Belə ki, işçilərin sağlamlığı üçün maksimum həssaslıq göstərilməlidir.

Bəzi mənbələr göstərir ki, ciddi iş rejimi olan müəssisələr daha uğurlu hesab olunur. Səbəb də odur ki, burada işçilər 7/24 çalışır və s. Bu belə ola bilər. Lakin, daim yorğun və xoşbəxt işçisi olmayan müəssisə nə dərəcədə uğurlu hesab oluna bilər ki? Orada uğurlu və yeni ideyalarla hansı işlər görülə bilər?! İşçiyə sərt qadağalarla yanaşı azadlıq da vermək lazımdır. O halda ki, çalışan şəxs də verilən azadlıqdan sui-istifadə etməsin. Bu zaman iş insanın ikinci evi kimi ola bilər. Sıxıldığı, əzildiyi, sərt əmrlər verildiyi yer insanın ikinci evi sayılmır.

***Ayşən Vəli***

## ELAN

"FLYEX" MMC-yə (VÖEN: 1405299631) məxsus 23.12.2020-ci il tarixli İN/L-489/2020 qeydiyyat nömrəli Lisenziya itirildiyi üçün etibarsız sayılsın.

***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**